Xalqın qəzeti!

# Xalq qəzeti

№ 171 (30287) 13 avqust 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz Azərbaycandan Türkiyə və Avropa istiqamətində gedən əlavə yol olacaq Zəngəzur dəhlizi üzərində çox fəal şəkildə çalışırıq. Azərbaycan ərazisində tikinti işlərinin təxminən 70 faizi artıq başa çatdırılıb. Beləliklə, Azərbaycan ərazisindən təkcə Bakı-Tbilisi-Qars kimi bir yol keçməyəcək, o cümlədən Zəngəzur dəhlizi işə salınacaq.**

## Tarixi yüksəlişin akkordları



**Ötən illər ərzində ölkə iqtisadiyyatına investisiya qoyuluşu diqqətdə saxlanılıb və nəticədə, yüksək göstəricilər əldə olunub. Bu uğurun əsasında isə respublikada gerçəkləşdirilən mükəmməl islahatlar konsepsiyasının müəllifi Prezident İlham Əliyevin yaratdığı müasir Azərbaycanın iqtisadi inkişaf modeli dayanıb.**

Bu model ölkəmizin iqtisadi tərəqqisinə, iqtisadi inkişafın davamlı olmasına, dünya birliyində mövqeyinin köklü surətdə möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına möhkəm zəmin yaradıb. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: "Əgər iqtisadi gücümüz olmasaydı, Vətən müharibəsində parlaq Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil".

(ardı 7-ci səhifədə)

## "Okampo planı" – ABŞ-ı şantaj etmək cəhdinə "Vaşinqton post"un "töhfəsi"

*Ermənistan Azərbaycanla danışıqlar prosesini saxta "erməni soyqırımı" iddiası ilə pozmağa çalışır*

**Əslində, gözlənilən idi. Söhbət beynəlxalq hüquq üzrə dələduz Luis Moreno Okamponun "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı saxta və sifarişli hesabatının hansısa Qərb nəşrində yayımlanmağından gedir. Hətta, son günlərdəki ermənipərəst mövqeyini nəzərə alsaq, hesabata "Vaşinqton post" qəzetinin də yer ayıracağı bir o qədər təəccüblü gəlmədi. Sifarişə gəldikdə, qaranlıq hüquq fəaliyyətinə malik Okamponu dövriyyəyə gətirənlər də məlumdur – erməni əsilli amerikalı pornoulduz Kim Kardaşyan və amerikalı klinik professor Erik İsraelyan.**



Qeyd edək ki, professor İsraelyan bir neçə gün əvvəl özünün sosial şəbəkə hesabında Okamponun "hesabatını" böyük sevinclə paylaşmışdı. Onun sevincindən "vəcdə gələn" dostu və iş ortağı Kardaşyan isə professorun paylaşımını öz səhifəsində bölüşmüşdü. Beləliklə, ictimai rəyə ilk "siqnal" ötürülmüşdü. İndi isə "Vaşinqton post" üçün həmin o siqnal "maraqlı" gəlib. Daha doğrusu, guya maraqlı gəlib.

ABŞ nəşrinin son günlərdəki ermənipərəst mövqeyini vurğuladıq. Bunun üzərində bir qədər dayanaq. Deməli, "Vaşinqton post"un bir neçə gün əvvəlki yazısında Birləşmiş Ştatlar Administrasiyasına Azərbaycanda həbs olunan iqtisadçı ekspert Qubad İbadoğlunun məsələsini Bakı – İrəvan danışıqlarına daşımaq çağırışı edilmişdi. Məlum idi ki, bu çağırış ermənipərəst qüvvələrin sifarişi idi. Məqsəd isə danışıqlar prosesinə yeni "çalarlar" gətirmək və onlardan reallıqları dəyişmək naminə yararlanmaqdır.

(ardı 3-cü səhifədə)

## Utanmasan oynamağa nə var ki...

**Ermənistan Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin, guya, humanitar böhranla üzləşməsinə dair başlatdığı iftira və böhtan kampaniyasını getdikcə daha da genişləndirir. Belə ki, rəsmi İrəvan avqustun 11-də Qarabağın mülki əhalisinin "məcburi blokadaya alınması nəticəsində humanitar vəziyyətin pisləşməsi ilə bağlı" BMT Təhlükəsizlik Şurasına fövqəladə sessiyanın çağırılması xahişi ilə müraciət edib.**



Ölkənin BMT-dəki daimi nümayəndəsi Mher Marqaryanın BMT Təhlükəsizlik Şurasının prezidentinə ünvanladığı məktub əvvəldən axıradək yalan-palanla doludur. O qeyd edib ki, bütün humanitar yardımların dayandırılması, məhdud daxili təminatın tədricən istifadəsi kəskin ərzaq qıtlığına və mağazaların bağlanmasına səbəb olub. Daimi nümayəndə saxta rəqəmlər uyduraraq, guya, 2 minə yaxın hamilə qadının, 30 minə yaxın uşağın, 20 min yaşlı və 9 min əlilin əsas qida və vitamin çatışmazlığı səbəbindən yaşamaq üçün mübarizə apardığını bildirib. Başqa bir sıra yalan rəqəmlər uyduran Marqaryan qeyd edib ki, bunun nəticəsində bu gün "Qarabağ xalqı humanitar fəlakətin astanasındadır".

Bildirib ki, hazırkı şəraitdə Ermənistan hökuməti qlobal təhlükəsizliyin təmin edilməsi və kütləvi cinayətlərin, o cümlədən müharibə cinayətləri, etnik təmizləmə, insanlıq əleyhinə cinayətlər və soyqırımların qarşısının alınması üzrə əsas orqan kimi BMT Təhlükəsizlik Şurasının müdaxiləsini və fövqəladə sessiyasının çağırılmasını xahiş edir.

(ardı 4-cü səhifədə)

## Ağdam və Füzulidə müasir tələblərə cavab verən yaşayış məhəllələri salınır



Səhifə ⇨ 5

## Azərbaycan Orta Dəhlizin Avropaya qovuşmasında ən maraqlı ölkədir

**Avropa Komissiyasının yaydığı məlumatda bildirilir ki, Avropa İttifaqının nəqliyyat sisteminin təşviqi və inkişafı yanaşmasına uyğun olaraq, Azərbaycan Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunda ən önəmli mövqe tutur.**




Ölkəmiz Orta Dəhliz infrastrukturundan istifadə edən dövlətlər arasında regional əməkdaşlıq, xüsusən də Mərkəzi Asiya regionunun davamlı iqtisadi tərəqqisinə dəstək vermək, həmçinin dəhlizin sadəcə tranzit marşrutu kimi fəaliyyət göstərməməsini gerçəkləşdirmək üçün səylərini davam etdirir.

(ardı 5-ci səhifədə)

## Müharibə şahmat oyunu deyil ki, heç-heçə bitsin

**Hayastanın baş naziri yenə başlayıb nala-mıxa vurmağa. O, bir tərəfdən sülh gündəminə sadiqliyini bəyan edir, digər tərəfdən isə kənar aktorların verdiyi təlimatla, sülhə nailolma prosesini "dondurmaq" məqsədilə təxribatçı açıqlamalar verir. Bütün bunlarla yanaşı, İrəvan həm də Azərbaycanın daxili işlərinə qarışmağa cəhdlər göstərir.**



Aydın görünən odur ki, hayların məqsədi sülh sazişini imzalamaqdan yayınmaq, bununla paralel olaraq savaş təhlükəsini minimuma endirməkdir. Amma bir-birinə tərs mütənasib gələn bu iki məqsədə İrəvanın hansı üsulla nail ola biləcəyi dumanlı görünür. Bəli, Hayastan hazırda sülh prosesindən uzaqlaşma variantları üzərində baş sındırır, fəqət Paşinyan iqtidarı niyyətini açıq şəkildə bildirməyə cəsarət eləmir... Bu səbəbdən sülh danışıqlarını qeyri-müəyyən müddətədək "dondurmaq" şansını qazanmaqdan ötrü dolanbac yollarla hərəkət etməyə üstünlük verir.

(ardı 3-cü səhifədə)

## Ağalı 106 övladını da qoynuna aldı



Səhifə ⇨ 8

## Özbəkistanda Azərbaycan dünyası



Səhifə ⇨ 9

## Yeniləşmiş sosial-iqtisadi inkişaf strategiyası

Səhifə ⇨ 7

## Ukrayna taxılına yeni yol açılır

Səhifə ⇨ 11

## "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2552 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2552 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 257; 2022, № 5, maddə 534) birinci hissəsində "Emil Məcidov – Azərbaycan Respublikasının iqtisadiyyat nazirinin müşaviri" sözləri "Cəfər Babayev – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti rəisinin müavini" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 avqust 2023-cü il**

# Qızıl Qaya massivində "Heydər zirvəsi"nə yürüş



**Fövqəladə Hallar Nazirliyinin Bakı Regional Mərkəzinin bir qrup əməkdaşı "Heydər zirvəsi"nə yürüş edib.**

Nazirlikdən bildirilib ki, yürüş iştirakçıları Xınalıq kəndindən hərəkətə başlayaraq, Böyük Qafqaz sıra dağlarının Başdağ silsiləsinin Qızıl Qaya massivində, dəniz səviyyəsindən 3 min 751 metr hündürlükdə yerləşən sərt və mürəkkəb relyefə malik "Heydər zirvəsi"nə qalxaraq, Ulu öndərin unudulmaz xatirəsini dərin ehtiramla anıblar.

Ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünü əks etdirən xatirə lövhəsi zirvəyə yerləşdirilib və Azərbaycan Respublikasının Dövlət bayrağı ilə bərabər FHN-in rəmzi olan bayraq da zirvədə dalğalandırılıb.

***"Xalq qəzeti"***

# Qarabağın erməni sakinləri sərhəd-buraxılış məntəqəsindən sərbəst keçiblər

**Dünən Qarabağın erməni sakinlərinin "Laçın" sərhəd-buraxılış məntəqəsindən növbəti keçidi baş tutub. Onlar sərhəd-buraxılış məntəqəsindən maneəsiz şəkildə Ermənistana keçiblər.**



Belə ki, Xankəndi-Gorus istiqamətində ümumilikdə BQXK-ya məxsus 9 nəqliyyat vasitəsi, 30 nəfər şəxsin (onlardan 3 nəfəri BQXK-nin üzvü, 9 sürücü, 10 xəstə, 7 müşayiətçi, 1 tibb işçisi) Laçın DSBM-dən keçidi təmin olunub.

Xatırladaq ki, "Laçın" sərhəd-buraxılış məntəqəsindən erməni əsilli şəxslər heç bir maneə ilə üzləşmədən günün istənilən saatında istifadə edə bilirlər.

***"Xalq qəzeti"***

# Düşmən mövqelərimizi atəşə tutub

**Avqustun 11-i saat 21:10-dan 21:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Bəzirxana və Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bundan başqa, avqustun 12-si saat 07:43-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən Ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri də atıcı silahlardan atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.



***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 285** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bakıelektrikşəbəkə" Səhmdar Cəmiyyətinin idarəetməyə verilməsi ilə bağlı "Azərenerji" səhmdar cəmiyyətinin dövlət büdcəsinə və digər subyektlərə yaranan borcları üzrə hesablaşma Qaydası"nın təsdiq edilməsi haqqında" 2001-ci il 10 dekabr tarixli 194 nömrəli, "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" 2002-ci il 22 avqust tarixli 137 nömrəli, "Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərinin müəyyən edilməsi haqqında" 2002-ci il 18 dekabr tarixli 198 nömrəli, "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" 2004-cü il 27 iyul tarixli 101 nömrəli və "Elektrik enerjisindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında" 2005-ci il 2 fevral tarixli 18 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 10 dekabr tarixli 194 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 804; 2002, № 10, maddə 641, № 12, maddə 749; 2003, № 7, maddə 391; 2006, № 1, maddə 59, № 4, maddə 373; 2009, № 10, maddələr 846, 853, № 12, maddə 1065; 2014, № 2, maddə 201; 2016, № 5, maddə 955; 2020, № 12 (V kitab), maddə 1580) ilə təsdiq edilmiş "Bakıelektrikşəbəkə" səhmdar cəmiyyətinin idarəetməyə verilməsi ilə bağlı "Azərenerji" səhmdar cəmiyyətinin dövlət büdcəsinə və digər subyektlərə yaranan borcları üzrə hesablaşma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə "Vergilər" sözü "İqtisadiyyat" sözü ilə əvəz edilsin və həmin bənddən "İqtisadiyyat Nazirliyinə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, və" sözləri çıxarılsın;

1.2. 2.3-cü bənddən ", Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə, Vergilər Nazirliyinə" sözləri çıxarılsın.

**2.** "Əmək şəraiti ağır və zərərli olan işlərdə və iqlim şəraitinə görə işləmək üçün əlverişli olmayan iş yerlərində çalışan işçilərin əmək haqqının yüksək məbləğdə ödənilməsini təmin edən artımların (əmsalların) məbləğinin minimum miqdarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli 137 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 548; 2003, № 4, maddə 225, № 7, maddə 392, № 10, maddə 616; 2004, № 5, maddə 379; 2005, № 9, maddə 853; 2007, № 2, maddələr 104, 112, № 6, maddə 584, № 8, maddə 788; 2010, № 4, maddə 361, № 6, maddə 566; 2012, № 3, maddə 265; 2013, № 6, maddə 728, № 8, maddə 1035; 2014, № 6, maddə 728; 2015, № 4, maddə 461, № 10, maddə 1217, № 11, maddə 1418; 2017, № 5, maddə 983; 2021, № 4, maddə 413) 7-ci hissəsində "Əmlak Məsələləri Dövlət Komitəsi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti" sözləri ilə əvəz edilsin.

**3.** "Atmosfer havasına atılan zərərli maddələrin stasionar mənbələri, habelə atmosfer havasının çirklənmə mənbəyi olan nəqliyyat, digər səyyar vasitələrin və qurğuların növləri üçün atılmanın texniki normativlərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 dekabr tarixli 198 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 750; 2009, № 1, maddə 32; 2018, № 8, maddə 1817) 3-cü hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

**4.** "Obyektlərdə elektrik, qaz və su sayğaclarının quraşdırılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 iyul tarixli 101 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 592; 2005, № 6, maddə 558; 2006, № 1, maddə 59, № 4, maddə 370, № 9, maddə 822, № 11, maddə 1000; 2008, № 5, maddə 432; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 4, maddə 359; 2018, № 8, maddə 1817) 5-ci hissəsinin ikinci abzasında "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə" sözləri ilə, 7-ci hissəsinin birinci abzasında və 8-ci hissəsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478; 2018, № 3, maddə 624, № 8, maddə 1817, № 10, maddə 2174; 2020, № 6, maddə 788; 2021, № 3, maddə 301, № 9, maddə 1084, № 11, maddələr 1256, 1271; 2022, № 4, maddələr 402, 403, № 12, maddə 1533) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 7.15-ci bəndin birinci abzasında, 7.16-cı bənddə, 8.7-ci bəndin üçüncü abzasında və 8.15-ci bəndin üçüncü cümləsində, 8.15-ci bəndin üçüncü cümləsində və 12.6-cı bəndin dördüncü abzasının beşinci cümləsində "Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin" sözləri ilə əvəz edilsin;

5.2. 12.1-ci bəndin üçüncü və dördüncü abzaslarında "İqtisadi İnkişaf Nazirliyinə Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Diaspor gəncləri Ulu öndərin Vətənində

**"Heydər Əliyev İli" çərçivəsində qədim Naxçıvanda "Diaspor Gənclərinin IV Yay Düşərgəsi"nin rəsmi açılış mərasimi keçirilib.**



"Heydər Əliyev və diaspor quruculuğu" mövzusunda sənədli filmin nümayişindən sonra Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında xüsusi nümayəndəsi Fuad Nəcəfli düşərgə iştirakçılarını salamlayıb. Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Milli Məclisi sədrinin birinci müavini Əli Hüseynli və Heydər Əliyev Fondunun nümayəndəsi Aydan Ramazanova düşərgənin işinə uğurlar arzulayıblar.

Tədbir bədii hissə ilə yekunlaşıb.

Avqustun 18-dək davam edəcək Diaspor Gənclərinin IV Yay Düşərgəsi Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə gerçəkləşdirilir. Düşərgənin tərəfdaşı Heydər Əliyev Fondudur, təşkilati dəstəyi Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasındakı xüsusi nümayəndəliyinə göstərir.

Diaspor tarixinin möhtəşəm layihələrindən biri hesab olunan IV Yay Düşərgəsində 53 ölkəni təmsil edən 100-dən çox gənc iştirak edir. Onların arasında həm dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, həm də Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələri var. Layihənin Heydər Əliyevin bir əsr öncə dünyaya gəldiyi qədim Naxçıvan şəhərində keçirilməsi Ulu öndərin xatirəsinə dərin ehtiramı ifadə edir.

***"Xalq qəzeti"***

# Türkiyə ilk zond raketini kosmosa buraxıb

**Türkiyənin "Roketsan" şirkəti tərəfindən qabaqcıl mühəndislik texnologiyaları ilə hazırlanmış ilk zond raketi İğneadadan uğurla buraxılıb.**

Bu barədə Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəsmi sosial media hesabında paylaşım edilib.

Qurum tərəfindən raketin buraxılış sınağının görüntüləri paylaşılıb.

Bildirilib ki, raketin bütün kritik alt sistemləri yerli, milli və unikal şəkildə hazırlanıb.

"Ölkəmizin kosmosa çatma səyləri çərçivəsində qabaqcıl mühəndislik texnologiyalarımızla hazırlanmış zond raketimiz İğneadadan uğurla buraxılıb", - deyə məlumatda qeyd edilib.



# “Okampo planı” – ABŞ-ı şantaj etmək cəhdinə “Vaşinqton post”un “töhfəsi”

## Ermənistan Azərbaycanla danışıqlar prosesini saxta “erməni soyqırımı” iddiası ilə pozmağa çalışır

(əvvəli 1-ci səhifədə)

### “Vaşinqton post”un erməni təəssübü

Bəli, “amplua”sına sadiq qalan “Vaşinqton post”un ermənipərəst ritorikanın davamı baxımından, belə demək mümkünsə, tutacaq yeri BMT-nin Beynəlxalq Cinayət Məhkəməsinin keçmiş baş prokuroru, beynəlxalq hüquq üzrə ekspert Luis Moreno Okamponun haqqında əvvəldə söz açdığımız hesabatıdır. Okampo təfəkkürünün mücərrəd guşəsində bəslədiyi “keyfiyyətləri” işə salaraq bildirib ki, Azərbaycan Qarabağ ermənilərini soyqırımına hazırlaşır. O, hesabatında bununla əlaqədar xəbərdarlıq edib. Karyerası ərzində qalmaqallarla yadda qalmış Luis Morenonun hazırladığı saxta sənədə istinad edən ABŞ nəşri, həmçinin BMT-nin Təhlükəsizlik Şurasına müraciətin ünvanlanmasını və “erməni soyqırımı” məsələsinin beynəlxalq platformalarda müzakirə mövzusuna çevirməyin zəruriliyini açıqlayıb.

“Vaşinqton post”, eyni zamanda Okamponun beynəlxalq konvensiyalarda soyqırımının digər məsələlərlə yanaşı, “yaşayış şəraitinin qəsdən dəyişdirilməsi” kimi təzahürünün mövcudluğu tezisinə söykənərək, “soyqırımın həyata keçirildiyini güman etmək üçün ciddi əsaslar var” deyə “həyəcan təbili” çalıb. Qəzetin “aclıq soyqırımının görünməz silahıdır. Təcili kəskin dəyişikliklər edilməsə, bu erməni qrupu yaxın həftələrdə məhv ediləcək” kimi fikirlərin yer aldığı məqaləsində Qarabağ münaqişəsinin tarixindən qısa şəkildə bəhs edilməklə bərabər, Ermənistanın Laçın – Xankəndi yolunun üzərində qurduğumuz Həkəri sərhəd nəzarət-buraxılış məntəqəsinə yaxın zonada hazırladığı “tır şousu”na da yer verilib.

Göründüyü kimi, Okamponun “hesabatından” söz açmaq da “Vaşinqton post”a verilmiş erməni sifarişidir. Yuxarıda bu sifarişin Kardaşyan – İsraelyan işbirliyinin nəticəsi olduğunu vurğuladıq. Onu da nəzərə alaq ki, Ermənistan baş naziri Nikol Paşinyan da bu duetlə sıx təmasdadır. Yada salaq ki, İsraelyan hələ 2019-cu ildə Paşinyanın start verdiyi ümumermәni çağırışına qoşulanlardandır. Çağırışın məqsədi bəlli idi: dünyanın erməni lobbi və diaspor təşkilatlarını Ermənistanın “yeni torpaqlar uğrunda yeni mübarizə” avantürasına dəstək göstərməyə cəlb etmək. Professor İsraelyan isə ABŞ-dakı erməni lobbisinin əsas simalarındandır. Onun Kardaşyanla biznes təşəbbüsləri ilə yanaşı, mövcud istiqamətdəki fəaliyyəti də var. Bu mənzərəni isə Paşinyan – Kardaşyan “bacı-qardaşlığı” tamamlayır.

### Okampo ABŞ-ı şantaj edir

Yeri gəlmişkən, Luis Moreno Okampo həyata keçirdiyi cəfəng işə ictimai məzmun qazandırmaq cəhdi ilə Paşinyan – Kardaşyan – İsraelyan oxuna “xidmətini” bütövləşdirib. O, dünən özünün sosial şəbəkə hesabında K.Kardaşyanı və E.İsraelyanı “Qarabağ xalqının” səsini ABŞ Dövlət katibi Antoni Blinkenə çatdırmağa çağırıb. Moreno yazıb ki, Blinken vəziyyəti dəyişdirə və bölgə ermənilərinin soyqırımını dayandıra bilən insanlardan biridir.

Yəqin, Okamponun həyasızlığına diqqət yetirdiniz. O, haqq-ədaləti məhz bu yolla ikinci plana atmağa çalışır. Eyni zamanda, öz “məqsədi” naminə



Birləşmiş Ştatlar Administrasiyasını şantaj etməkdən belə çəkinmir. Dələduz hüquqşünasın çağırışı saxta soyqırımı iddiasını danışıqlar prosesinə, daha doğrusu ABŞ vasitəçiliyinin tərkibinə daxil etməkdir. Belə çıxır ki, əgər bu məsələ reallaşmasa, Blinken soyqırımın gerçəkləşməsinə göz yuman şəxsə çevriləcəkdir. Deməli, həm də bu qənaətə gəlmək mümkündür ki, erməni lobbi və diaspor təşkilatları Okamponun dili ilə ABŞ Administrasiyasını şantaj etmək yolunu tuturlar. Məqsəd aydındır: Vaşinqtonu ədalətli vasitəçilikdən yayındırmaq.

### Dələduz Moreno – vergidən yayınma, ofşorlarda hesab və…

Okampoya gəldikdə isə o, pul üçün hər cür vicdansızlığa hazır fiqurdur. Dünyanın müxtəlif media orqanları onun karyerasındakı qaranlıq məqamlara kifayət qədər çox toxunublar. Məsələn, 2017-ci ildə Fransanın rəqəmsal “Mediapart” nəşri naməlum mənbələrdən Morenonun bütün elektron poçt yazışmalarının suretini əldə etməyə müvəffəq olmuşdu. Almaniyanın “Der Spiegel” nəşri isə bu materiallar əsasında müəyyənləşdirmişdi ki, ekspert 2003-cü ildən bəri Argentinada vergi vermir.

Məsələ burasındadır ki, alman nəşri Moreno Okamponun ofşorlarda hesab və kampaniyalarının olduğunu üzə çıxarmışdı. Onun özü də həmin qeyri-leqal zonalarda “işlədiyini” etiraf etmək məcburiyyətində qalmış və demişdi ki, Argentinada yaşamadığı üçün vergi ödəmir.

Elə sözügedən tədqiqat əsasında Avropanın jurnalist şəbəkəsi olan EIC xəbər vermişdi ki, Moreno Okamponun Hasan Tatanaki adlı müştərisi olub. Tatanaki liviyalı maqnat idi və ölkəsindəki hərbi cinayətlərdə ittiham edilirdi. Necə alındısa, Beynəlxalq Cinayət Məhkəməsi heç vaxt maqnatı qeyri-insani əməllərdə şübhəli bilmədi. Əlbəttə, bu, Moreno Okamponun 2012-ci ildək çalışdığı qurumdakı baş prokuror “fəaliyyətinin” nəticəsi idi.

Qaranlıq hüquq fəaliyyəti ilə ad çıxarmış Luis Moreno Okamponun daha bir kriminal dələduzluq şübhəli əməlini isə “Sunday Times” nəşri üzə çıxarmışdı. Nəşr müəyyənləşdirmişdi ki, Beynəlxalq Cinayət Məhkəməsindən çıxan elektron məktublarda Moreno məhşur kino ulduzu Ancelina Coli və çox güman, onun o zamankı həyat yoldaşı, tanınmış aktyor Bret Pittin köməyi ilə uqandalı hərbi rəhbər Cozef Konini nahara dəvət etmək, onun həbsinə nail olmaq və irəli düşmək istəmişdi.

### Okapmo – Arayik görüşü

Bəli, Okampo müxtəlif cinayətkar kriminal dairələrin, belə demək mümkünsə, haqlı çıxarılması, cəzadan uzaq tutulması üzrə dünyanın say-seçmə hüquq mütəxəssislərindəndir. Yəni ermənipərəst dairələr, indiki halda, Ermənistan baş naziri N.Paşinyanın dirijor çubuğu ilə hərəkət edən Kardaşyan-İsraelyan tandemi kimə, hansı məqsədlə üz tutduğunun fərqindədir. Luis Moreno saxta hesabat hazırlayaraq, Azərbaycanın Qarabağ ermənilərinə qarşı, guya, soyqırımı həyata keçirməsi ilə bağlı iddianın beynəlxalq hüquq müstəvisinə çıxarılmasına çalışır. Bütün bunlar öz yerində.

Onu da bildirək ki, Qarabağdakı separatçı rejim üçün də Okampo yad fiqur deyil. O, separatçıların başçısı Arayik Arutunyanla onlayn görüş keçirib. Bu fakt dələduz hüquqşünasın qaranlıq karyerası üçün ən böyük ləkədir. Digər ləkələr barədə isə yuxarıda bəhs etdik. Görünən budur ki, Luis Moreno üçün heç bir mənəvi dəyər olmadığı kimi, hüquq anlayışı da yoxdur. Hüquq onun üçün yalnız manipulyasiya predmetidir. Əks-halda, Qarabağın Azərbaycan ərazisi kimi beynəlxalq səviyyədə tanındığını nəzərə alardı...

### Paşinyanın danışıqlar prosesinə təsir cəhdi

Sonda bütün bunların fonunda gəldiyimiz qənaəti bölüşək. Görünən budur ki, Paşinyan sözdə Qarabağın Azərbaycan ərazisi olduğunu bildirsə də, bölgə ermənilərinin durumu müstəvisində beynəlxalq platformalara daşınan cəfəngiyyatlar baş nazirin sözlərinin əhəmiyyətini heçə endirməyə hesablanıb. Nikol bu il iyulun 15-də Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyevlə Brüsseldə keçirilmiş görüşədək Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini danışıqlar prosesinə daxil etməyə çalışdı. Lakin həmin görüş göstərdi ki, nizamlama prosesinin mövzusu stabildir. Yəni İrəvanın iddiası keçərli deyil. Deməli, başqa nələrisə fikirləşib tapmaq zərurəti yarandı. Bu zaman Okamponun “hesabatı” üzərində dayandılar.

Bəli, Luis Morenonun cəfəng sənədi sayəsində formalaşmasına hesablanmış yeni durumda Paşinyanın Qarabağ da daxil olmaqla, ölkəmizin ərazi bütövlüyünü tanımasının arxa plana keçməsi nəzərdə tutulur. Heç şübhəsiz, bu plan Nikolun özü tərəfindən işlənib hazırlanıb. Yəni o, danışıqlar prosesində, guya, konstruktiv olduğunu, beynəlxalq hüququ nəzərə aldığını təsdiqləyir, ancaq altdan-altdan dəstəklədiyi “təşəbbüslərlə” həmin hüququn bəyan etdiyi prinsiplərin interpretasiyasına çalışır. İndi görünür ki, bu labirintin bir tərəfi də “Vaşinqton post”dur. Əks-təqdirdə qəzet niyə Okamponun saxta mahiyyət daşıdığı şübhə doğurmayan hesabatını ictimailəşdirsin ki?

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

# Müharibə şahmat oyunu deyil ki, heç-heçə bitsin

## Bakı münaqişəni “konservləşdirmək”, sülh danışıqlarını “dondurmaq” kimi ideyaları da tarixin arxivinə göndərməkdə israrlıdır

(əvvəli 1-ci səhifədə)

“Ermənistan baş naziri Nikol Paşinyanın 11 avqust tarixində hökumətin iclasında çıxışı zamanı növbəti dəfə bölgədə “gərgin humanitar vəziyyət” barədə iddiaları təkrarlayarkən, Ermənistan tərəfindən “humanitar yük” adı altında Laçın istiqamətində göndərilən yüklərin qəbul edilməməsinin erməni sakinlərə qarşı “etnik təmizləmə” kimi qələmə verməsi heç bir məntiqə sığmır”.

Bu fikirlər Azərbaycan XİN-in hayların baş nazirinin yersiz, sübutsuz, yalana söykənən iddialarına cavabında da öz əksini tapıb.

Göründüyü kimi, Ermənistan baş naziri “beynəlxalq mexanizmlər çərçivəsində Xankəndi–Bakı dialoqu” istəyi ilə Azərbaycanın daxili işlərinə qarışmaq istiqamətində uğursuz cəhdlər göstərir. Baxmayaraq ki, bu zaman biabırçı məğlubiyyətə uğradığı 44 günlük müharibədən əvvəlki vəziyyətə qayıtmağın heç vaxt mümkün olmayacağı ona gün kimi aydındır. Heyrət doğuran digər məqam odur ki, müstəqil siyasət yürütmək, qərarlar qəbul etmək imkanından məhrum Paşinyan iqtidarı bunu bilə-bilə sülh prosesinə badalaq vurmaq üçün məhz bu “tezis”dən maksimum yararlanmağa çalışır.

Azərbaycan XİN-in cavab bəyanatında qeyd olunur ki, Ermənistanın bu iddialarını davamlı olaraq təkrarlaması onu göstərir ki, Laçın sərhəd-buraxılış məntəqəsi təsis edilənədək bu yoldan istifadə etməklə həyata keçirdiyi qeyri-qanuni fəaliyyətin məntəqə təsis edildikdən sonra qarşısının alınması İrəvanı bərk narahat edir: “Erməni sakinlərin həqiqətən də iddia olunduğu kimi, gündəlik tələbat mallarına ehtiyacları varsa, bunun üçün Azərbaycanın təklif etdiyi və beynəlxalq tərəfdaşların dəstəklədiyi “Ağdam–Xankəndi” yolundan istifadə edilməsi mümkündür”.

* * *

İrəvanın “stəkanda tufan” effekti yaratmaq cəhdləri kimi xarakterizə edilməyə layiq son “diplomatik demarşları” ilə Bakıdan sülh danışıqlarında, Qarabağ ermənilərinə münasibətdə müəyyən güzəştlər qoparmağı hesabladığını görmək çətin deyil. Amma başına topladığı daxili və xarici dəstəkçiləri ilə bərabər “düzüb-qoşduğu” “blokada”, “humanitar böhran”, “etnik təmizləmə” kimi cəfəng iddiaların heç birinin Bakıya yapışmayacağını, bu yalanların ayaq tutub yeriməyəcəyini Paşinyanın özü də yaxşı bilir. Mövzunun davamı olaraq Qarabağ ermənisi, sosial şəbəkə fəalı Artur Osipyanın Laçın yolunda heç bir blokadanın olmadığını, Ağdərədə “arsaxlıların” acından ölmədiyini sübut edən açıqlamasını oxucularımızın diqqətinə çatdırırıq: “Mən də deyirəm ki, Qarabağda problemlər var, amma aclıqdan danışmaq, körpə uşaqları göstərmək bizə başucalığı gətirmir. Yəni, bütün dünyaya demək istəyirik ki, bizim ağır vəziyyətimizə baxın və qurban qismində uşaqlarımızı irəli veririk. Bu yalan keçmir! Bu yalan əks-effekt verir və bizə şərəf gətirmir”. Osipyanın dediyinə görə, Qarabağdakı “hakimiyyət” 30 il bölgəni çapıb-talayıb və indi gördükləri “çörək növbələri” hansısa “blokadanın” yox, rüşvətxor “idarəçilərin” əməllərinin nəticəsidir. Bunu hadisə yerindən yerli erməninin qaynar reportajı, eləcə də real vəziyyətin canlı sübutu qismində qəbul edə bilərik.

Paşinyan yəqin onu da anlayır ki, nə qədər gec deyil müharibədə uduzduqlarını həzm etməli, Azərbaycanın şərtləri ilə razılaşmalı və daha ciddi fəsadlarla üzləşmədən sənədlərə imzasını atmalıdır. Hansı tərəfdən baxmasından asılı olmayaraq, rəsmi İrəvan sülh sazişindən imtina ediləcəyi təqdirdə,



onu növbəti savaşda daha ağır məğlubiyyətin gözlədiyini də nəzərə almağa məcburdur.

* * *

Hazırda Cənubi Qafqazda sülh və təhlükəsizlik ciddi təhlükə ilə üz-üzədir. Qarabağ münaqişəsinin son nizamlama mərhələsində Vaşinqton və Brüssel kimi moderatorların israrlı cəhdlərinə baxmayaraq, bölgədə kövrək sülh prosesinin dalana dirənmə ehtimalı inandırıcı görünməkdədir. Dünyanın bir çox nəhənglərinin geosiyasi, hərbi-iqtisadi maraqlarının toqquşması faktı regionda sülhün və sabitliyin bərpasına əsas əngəl rolunu oynayır. Məhz bu baxımdan, regionda hərbi-siyasi situasiyanın getdikcə daha da gərginləşməsi təəccüb doğurmur.

Burada, təbii ki, sülh prosesinin pozulmasına yönəlik cəhdlərə baş vuran məhz Ermənistandır. O Ermənistan ki, Cənubi Qafqaza iştahlı bəzi aktorların əlində “geosiyasi alət” rolunu oynamaqdadır. Elə həm də bu səbəbdən hazırda Paşinyan hakimiyyəti hansısa formada Ermənistanın maraqlarına cavab verə biləcək sülh sazişinə imza atmaq ixtiyarından uzaqda görünür. Rəsmi İrəvanın beynəlxalq himayədarlarının təlimatlarına uyğun davranışları da buna hesablanıb.

Amma İrəvan bunu həmişəlik qulağında sırğa etməlidir: “Laçın dəhlizi” yoxdur, Laçın yolu var. Həmin yolun başlanğıcında Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsi fəaliyyət göstərir. Və bu postdan hər gün Qarabağın erməni sakinləri sərbəst şəkildə hərəkət edirlər.

* * *

Yenidən sülh danışıqları mövzusuna qayıdaraq qeyd etməyi zəruri sayırıq ki, ikitərəfli və üçtərəfli dialoqun əsas vasitəçisi, tərəflər arasında moderatorluq missiyasını boynuna götürmüş Rusiyanın son vaxtlar sərgilədiyi mövqe özünün “orijinallığı” ilə Cənubi Qafqaz sevdalı bütün oyunçuların diqqətini çəkir.

Onu da xatırladaq ki, Rusiya XİN-nin MDB ölkələri üzrə dördüncü departamentinin direktoru Denis Qonçar bu günlərdə maraqlı açıqlama ilə çıxış edib. Qonçarın qənaətinə görə, tələsik hazırlanmış sülh müqaviləsi bölgəyə davamlı sülhü gətirə bilməz: “Əksinə, gələcəkdə yeni münaqişələrin, faciələrin əsasını qoyacaq. Sürətə deyil, balanslaşdırılmış və qarşılıqlı məqbul həllərin keyfiyyəti hazırlanmasına üstünlük verilməlidir”.

Yerləşdiyi binanın üst fasadından hələ də SSRİ-nin oraq-çəkicli gerbi boylanan Rusiya XİN-in sülh prosesində mövqeyi bu açıqlaması da bəlli idi. Kremlin Ukrayna cəbhəsində vəziyyətin kifayət qədər gərginləşdiyi indiki məqamda üçtərəfli dialoq, sülh danışıqlarının növbəti raundu kimi “ikinci dərəcəli məsələlərə” ayırmağa vaxtı yoxdur.

Bakı bunu dəfələrlə deyib və bəyan edib: beynəlxalq hüquq normalarına görə, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Oradakı erməni azlığın hüquq və təhlükəsizliyinə Azərbaycan təminat verir. Dünyanın heç bir dövləti ərazisindəki etnik azlığa xüsusi imtiyazlar tanımaz. Bu mənada rəsmi Bakı da Qarabağdakı erməni azlığına Azərbaycan Konstitusiyasında bütün vətəndaşlara şamil edilən hüquqlardan daha artığını verməz. Yəni, Ermənistan üzləşdiyi bütün çətinliklərdə Azərbaycanı təqsirkar çıxarmağa, hətta Bakını dünyanın gözündə “təcavüzkar” göstərməyə nə qədər çalışsa da, bunun tam əksini təsdiqləyən dosyelər, həmçinin Osipyan kimi canlı şahidlərimiz var. Bunları görməzdən gəlmək isə nə Paşinyanın özündə, nə də onun komandasında alınacaq. Çünki, onların güman etdikləri kimi, müharibə və onun nəticələri hərdən qalibin müəyyənləşmədiyi şahmat oyununa bənzəmir. Taxta lövhə üzərindəki “döyüşdən” fərqli olaraq, real meydandakı qarşıdurmada “heç-heçə” variantı mümkün deyil. Bu müstəvidə məğlub tərəf qalibin şərtlərini qəbul etməyə məhkumdur.

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# Utanmasan oynamağa nə var ki...

## 27 il BMT TŞ-nin qətnamələrini saya salmayan İrəvan indi hansı mənəvi haqla ona müraciət edir?



(əvvəli 1-ci səhifədə)

Qeyd edək ki, BMT Təhlükəsizlik Şurası BMT-nin daimi fəaliyyət göstərən ali orqanıdır. BMT-nin Nizamnaməsinə görə, təşkilat beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. Şuranın 15 üzvü var. Onlardan 5-i (Çin, Fransa, Rusiya, Böyük Britaniya və ABŞ) daimi, 10-u isə 2 il müddətinə seçilən qeyri-daimi üzvlərdir. Şuranın hər üzvü bir səsə malikdir. Prosedur məsələlərinə dair qərarlar şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. Yeri gəlmişkən, qeyd edək ki, 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikası ilk dəfə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib.

Ermənistanın BMT Təhlükəsizlik Şurasına müraciət etdiyini eşidəndə insanın ağlına ilk olaraq qurumun Azərbaycan torpaqlarının işğalı ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı 4 qətnamə gəlir.

822 saylı qətnamə Kəlbəcərin işğalından sonra – aprelin 30-da qəbul edilib. Qətnamə bölgədə hərbi əməliyyatlara son qoymağı, erməni qoşunlarının Kəlbəcərdən və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini tələb edirdi. 853 saylı qətnamə Ağdamın işğalından sonra – iyulun 29-da qəbul olunub. Bu qətnamə də bölgədəki hərbi əməliyyatları dayandırmağı, erməni qoşunlarının Ağdamdan və son dövrlərdə işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsini, həmçinin 822 saylı qətnaməyə əməl edilməsini tələb edirdi.

Oktyabrın 14-də qəbul olunan 874 saylı qətnamə erməni qoşunlarının Füzuli, Cəbrayıl, Qubadlı və digər ərazilərdən geri çəkilməsini özündə ehtiva edirdi. Nəhayət, noyabrın 12-də qəbul olunan 884 saylı qətnamədə tərəflər arasında yenidən hərbi əməliyyatların bərpası ilə nəticələnən atəşkəs pozuntuları qınanılır, Ermənistan Respublikasından ermənilərin Qarabağdakı qondarma respublikası üzərindəki bütün təsir vasitələrindən istifadə etməsi istənilirdi. Qətnamədə hərbi əməliyyatların dərhal dayandırılması, son dövrdə işğal edilmiş Zəngilan rayonu da daxil olmaqla, digər rayonlardan erməni silahlı dəstələrinin çıxması tələb edilirdi.

Ermənilərin yalançı iddialarından fərqli olaraq bu qətnamələr yaxın tarixin bir hissəsi, BMT-nin ali orqanının məcburi hüququ öhdəlik daşıyan sənədləridir. Rəsmi İrəvan 27 il ərzində onların birini də icra etmədi. Nəhayət, Azərbaycan özü məcbur qalaraq onların icrası üçün hərəkətə keçdi. 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi 44 gündən sonra Ermənistanın təslimolma sənədini imzalaması ilə yekunlaşdı. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini təkbaşına icra edən ilk ölkə kimi adını dünya tarixinə yazdırdı.

İndi beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyan orqanın qətnamələri heçə sayan, onları kağız parçası hesab edən Ermənistan hansı mənəvi haqla bu ali quruma müraciət edir? Onlar BMT-nin "qapısını döyməyə" belə utanıb xəcalət çəkməlidirlər. Amma biz hayların xislətinə yaxşı bələdik. Bilirik ki, onlar belə insanı keyfiyyətlərdən çox-çox uzaqdırlar. Müdrik atalarımızın dediyi "utanmasan oynamağa nə var ki…" sözləri sanki bu toplumun boynuna biçilib.

Yeri gəlmişkən, Ermənistanın BMT Təhlükəsizlik Şurasının sədrinə 2022-ci il 13 sentyabr tarixli məktubu və Təhlükəsizlik Şurasının həmin ilin dekabrın 20-də çağırılan iclası qarşı tərəfin tam iflası ilə nəticələnib. Görünür, haylar yeni iflas üçün darıxıblar.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

### Ekspert rəyi

**Aydın QULİYEV, politoloq**



– Ermənistanın Qarabağ ətrafında və Laçın yolunda yaranmış vəziyyətlə bağlı BMT Təhlükəsizlik Şurasının fövqəladə sessiyasının çağırılması xahişi ilə müraciəti növbəti həyasızlığın, bölgədə sülh və sabitliyin əldə olunması istiqamətində aparılan işə saygısız münasibətin təzahürüdür. İrəvanın müraciəti BMT Təhlükəsizlik Şurasının düz 30 il bundan öncə – 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə, heç olmasa, zərrə qədər saygı göstərdiyi təqdirdə əsaslı, haqlı görünə bilərdi. BMT-nin rəhbərliyində olanlar, onun tarixini bilənlər çox yaxşı anlayırlar ki, Ermənistanın müstəqil dövlətçilik tarixinin bir istiqaməti BMT TŞ-nin qətnamələrinə və bütün beynəlxalq hüquq normalarına hörmətsizlikdən başqa bir şey olmayıb. Əgər belə olmasaydı, onlar BMT Təhlükəsizlik Şurasının məcburi gücə malik qətnamələrinin yerinə yetirilməsinə çalışar və bölgəmizi 2020-ci ildə müharibə ilə üz-üzə qoymazdılar. Buna görə də BMT Təhlükəsizlik Şurasının rəhbərliyi ilk növbədə Ermənistan rəhbərliyinin bu müraciətinin arxasında dayanan ikiüzlü siyasətə diqqət yetirməlidir.

Digər tərəfdən, biz burada qurulmuş oyunun tərkib hissələrini görürük. Çünki Qarabağda yaranmış vəziyyətin, guya, "humanitar böhran" olduğu, "soyqırımı" ərəfəsində olması ilə bağlı ermənilər çoxdandır nağıllar uydurur, bütün dünyanın diqqətini olmayan bir şeyə cəlb etməyə çalışırlar. Vətən müharibəsində sarsıdıcı məğlubiyyətə düçar olan haylar Qarabağ iqtisadi rayonunda Azərbaycanın tam suverenliyinin bərqərar olması ərəfəsində prosesi dayandırmaq üçün belə çirkin üsullara əl atırlar.

Bir neçə gün öncə separatçı rejimin "qlavarı" Arayik Arutyunyan beynəlxalq ictimaiyyətə müraciət ünvanlamışdı. Həmin müraciətdə məsələni BMT Təhlükəsizlik Şurasında qaldırmaqla bağlı İrəvana çağırış edilmişdi. Görünür ki, separatçı rejimlə Ermənistan rəhbərləri əlbir olaraq, bu işi öncədən düzüb-qoşublar. Əvvəlcə Arutyunyana belə bir müraciətin edilməsi üçün işarə verilib. Arutyunyan həmin müraciəti edəndən sonra, Ermənistan rəhbərliyi də, guya, bu müraciətə uyğun olaraq BMT Təhlükəsizlik Şurasının fövqəladə sessiyasının çağırılması təşəbbüsü ilə çıxış edib.

Bütün hallarda "blokada", "soyqırımı" söhbətlərinin bir oyun olduğu dünyaya məlumdur. Təkcə bunu demək kifayətdir ki, aprelin 23-də Laçın sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılandan indiyədək Xankəndidən Ermənistana və əks istiqamətdə gedib-gələnlərin sayı 2 min nəfəri keçməyib. Əgər Qarabağda vəziyyət iddia etdikləri kimi ağır olsaydı, özlərinin dediyi 120 min nəfər arasından 2 min nəfər İrəvana getmək və qayıtmaq zərurəti görməzdi. Deməli, orada insanların yaşayışı normaldır. Sadəcə olaraq, Ermənistan real vəziyyət ətrafında çox acınacaqlı durum var imiş görüntüsü yaratmaq və dünyanın diqqətini buna cəlb etmək istəyir. Ancaq dünya artıq hər şeyi başa düşüb. Azərbaycanın Laçın yolu və Qarabağ üzərində suverenliyini tam bərpa etmək kimi legitim hüquqa malik olduğunu dünya birliyi də yaxşı başa düşür.

# Fakt da ortadadır, video-sübut da

## Rusiya sülhməramlı kontingentinin erməni quldurları ilə "işbirliyi" təsdiqləndi

**Azərbaycanın Qarabağ iqtisadi rayonunda müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingenti iki il doqquz ayda olduğu kimi, bu gün də öz "missiyasını yüksək səviyyədə" icra etməkdədir. Bunu "Caliber.az" saytının yaydığı videogörüntülərdə aydın şəkildə görə bilərik. Avqustun 11-də Xankəndi-Kərkicahan-Xəlfəli yolunda Rusiya sülhməramlılarının zirehli transportyorunun müşayiəti ilə erməni quldur dəstələrinin döyüş postlarına dəstək vasitələrinin ötürüldüyü aydın görünür.**



Bu görüntülər bir daha onu göstərir ki, Azərbaycanın Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlı kontingentin "çətiri" altında olan erməni quldur dəstələri özlərinin qeyri-qanuni fəaliyyətlərini davam etdirirlər.

Bunu təsadüfi hesab etmək olarmı? Olmaz! Çünki onların Qarabağda birgə hərəkətləri əvvəlcədən hazırlanmış plan əsasında həyata keçirilir. Planın əsas hərəkətverici qüvvəsi rolunda isə yenə Rusiya sülhməramlıları çıxış edirlər.

Bu barədə yazmışdıq, yenə təkrar edirik: Rusiyalı sülhməramlıları Qarabağda sülhdən başqa hər şeylə məşğuldurlar. Onların Xankəndidəki separatçı rejimlə, eləcə də silahlı erməni quldurları ilə müştərək və şübhəli fəaliyyəti, ara-sıra təxribatçı əməllərə yol verməlri barədə fakt və məlumatlar yetərincədir və onların bir çoxu rəsmi şəkildə Moskvanın nəzərinə çatdırılıb. İndi belə məlum olur ki, Kreml ya bu sorğuları gözünün və qulağının yanından ötürür, ya da Qarabağımızda müvəqqəti qonaq statusunda yerləşən hərbi kontingentinə nəzarət edə bilmir.

Məhz bu kimi incə məqamlara diqqəti çəkən bəzi ekspertlərin qənaətinə görə, bu cür davranışla sülhməramlılar 2 il 3 aydan sonra deyil, o müddətdən daha tez Azərbaycan torpaqlarını tərk etməli olacaqlar. Əslində, birinci və sonuncu olmayan belə hərəkətləri ilə onlar etimad limitlərini tam xərcləməklə, azərbaycanlıların səbir kasasını doldurmaqla məşğuldurlar. Açıq demək lazımdır ki, sülhməramlılar 2020-ci il 10 noyabr tarixli Bəyanatla boyunlarına düşən vəzifələrin öhdəsindən gələ bilmirlər. Əslində, onlar buna heç cəhd də göstərmirlər.

Sabah üzə çıxsa ki, baş vermiş təxribat əraziyə müvəqqəti nəzarət edən Rusiya sülhməramlıları ilə, misal üçün, Ruben Vardanyan arasında qurulmuş hansısa ssenarinin tərkib hissəsidir, qəti təəccüblənmərik.

***İ. HƏSƏNQALA, "Xalq qəzeti"***

# İcma belçikalı diplomatı qərbi azərbaycanlıların qayıdışını İrəvan qarşısında qaldırmağa çağırır

**Qərbi Azərbaycan İcması Belçika xarici işlər nazirinin "blokadanın aradan qaldırılması" ilə bağlı 2023-cü il avqustun 12-də səsləndirdiyi reallıqdan tamamilə uzaq, qərəzli fikirlərini qınayan bəyanat yayıb.**

Bəyanatda belçikalı diplomata xatırlanır ki, Azərbaycanda "Dağlıq Qarabağ" adlı bir ərazi mövcud deyildir.

Qərbi Azərbaycan İcması Belçikanın xarici işlər nazirini erməni həmkarı ilə növbəti təmaslarda, o cümlədən özünün anons etdiyi regiona gözlənilən səfəri zamanı qərbi azərbaycanlıların Ermənistana qayıdışı məsələsini rəsmi İrəvan qarşısında qaldırmağa çağırır.

***"Xalq qəzeti"***

# "RTCG" TV: Qarabağa qayıdış ərazilərin minalardan təmizlənməsindən keçir

**Monteneqronun "RTCG" radio-televiziya kanalı Qarabağdakı mina problemi, eləcə də burada aparılan bərpa və yenidənqurma işləri ilə bağlı reportaj yayımlayıb.**




Azərbaycanın işğaldan azad olunan ərazilərinə səfər edən telekanalın jurnalisti reportajda onilliklər ərzində Ağdam şəhərində döyüşlərin getdiyini və bu gün isə həmin bölgənin minalarla ən çox çirklənmiş ərazi olduğunu bildirir.

Vurğulanır ki, müharibə dövründə Qarabağın əhalisi öz evlərini tərk etmək məcburiyyətində qalıb. Hazırda Azərbaycan işğaldan azad olunan ərazilərdə yenidən məskunlaşmanı təmin etmək üçün bütün qüvvələrini səfərbər edib. İnsanların öz doğma yurd-yuvalarına qayıtması üçün ərazilərin minalardan tamamilə təmizlənməsi mühüm şərtdir.

Videosüjetdə vurğulanır ki, minatəmizləmə prosesi hələ uzun müddət davam edəcək. Bu vaxtadək 80 mindən çox mina məhv edilib. Bununla yanaşı, minatəmizləmə prosesinə paralel olaraq bölgədə avtomobil yolları və yeni obyektlərin inşası aparılır.

Reportajda hazırda bölgədə bəzi qəsəbələrin yenidən tikildiyi, ilk yaşayış məntəqələrinin qarşıdakı aylarda hazır olacağı bildirilir.

***"Xalq qəzeti"***

# Yol Polisinin xəbərdarlığı

**Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi konstruktiv bütövlüyü pozulmaqla avtomobil idarə edən şəxslərə xəbərdarlıq edib.**

Məlumatda bildirilir ki, son vaxtlar konstruktiv bütövlüyü pozulmaqla, o cümlədən istehsalçı tərəfindən nəzərdə tutulmuş ön və arxa mühafizə qurğuları (bamper) yerində olmayan nəqliyyat vasitələrinin istismarına yol verilir. Bu isə inzibati xəta tərkibi yaratmaqla yanaşı, həm də yol-nəqliyyat hadisələri zamanı qəzanın ağırlıq dərəcəsinin artmasına zəmin yaradır.

Yol Polisi avtomobilin bamperlərin təmir, zövq və digər səbəblərdən yerində olmadan idarə edilməsi hallarına qarşı nəzarət tədbirlərinin gücləndirildiyini qeyd edir. Sürücülərin nəzərinə çatdırılır ki, nəqliyyat vasitələrində belə nasazlıqların aşkar ediləcəyi təqdirdə onlar barədə qanunvericiliyə uyğun inzibati məsuliyyət tədbirləri görüləcək.

Dövlət Yol Polisinin başqa bir məlumatında isə bildirilir: "Yol hərəkəti haqqında" Qanunun 27-ci maddəsinə edilmiş dəyişikliyə əsasən 2023-cü ilin 1 avqust tarixindən mühərrikinin işçi həcmi 50 kubsantimetr və daha çox, yaxud maksimal hərəkət sürəti saatda 50 kilometrdən artıq olan mopedlərin qeydiyyata alınması, habelə onların idarə edilməsi üçün sürücülük vəsiqəsi tələb olunur".

***"Xalq qəzeti"***

# Azərbaycan Orta Dəhlizin Avropaya qovuşmasında ən maraqlı ölkədir

(əvvəli 1-ci səhifədə)

Qeyd edilib ki, bu məsələ hələ ötən il dördtərəfli birgə müəssisənin yaradılması və Aktauda (Qazaxıstan) "İnvestisiya Yol Xəritəsi"nin təsdiqi zamanı müzakirə edilib.

Məlumatda daha sonra qeyd edilir ki, Ukraynada müharibə başlayandan Avropa ilə Mərkəzi Asiya ölkələri arasında nəqliyyat dəhlizlərinin geosiyasi əhəmiyyəti və potensialı xeyli artıb. Rusiya ərazisindən keçən Şimal Dəhlizi üzrə trafikin azalması nəticəsində Qazaxıstan, Xəzər dənizi və Qafqazdan keçən Orta Dəhliz 2022-ci ildə 2021-ci illə müqayisədə 2,5 dəfə çox yük ötürməklə əlavə həcmlər cəlb edib. Qırğızıstan, Özbəkistan və Türkmənistanın iştirakı ilə regionda digər nəqliyyat əlaqələrinin də planlaşdırılmasına böyük maraq var.

Onu da deyək ki, Orta Dəhliz Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa ölkələri vasitəsilə Çin və Avropa İttifaqı ölkələrinin konteyner dəmir yolu ilə yükdaşıma şəbəkələrini əhatə edir.

Çoxtərəfli, multimodal nəqliyyat infrastrukturu olan Orta Dəhliz Xəzər və Qara dənizlərin bərə terminallarını Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu sistemləri ilə birləşdirir. Bu infrastruktur Çindən Türkiyəyə, eləcə də Avropa ölkələrinə və əks istiqamətə yükdaşımaların artmasına töhfə verir.




Bu dəhlizlə hərəkət edən marşrut qatarı Çindən Avropaya yükləri orta hesabla 20-25 günə çatdırır və bu, bu nəqliyyat dəhlizinin əsas üstünlüklərindən biridir.

Yeri gəlmişkən, Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov "X" sosial şəbəkə hesabında bildirib ki, Orta Dəhlizin Cənubi Qafqaza və Avropaya kimi genişləndirilməsi üçün ticarət və investisiya əlaqələrini inkişaf etdirən hərəkətverici qüvvədir.

Onun sözlərinə görə, Azərbaycan bərə, liman və digər nəqliyyat infrastrukturunda əhəmiyyətli irəliləyişlərə nail olub.

Xatırladaq ki, indiki geosiyasi şəraitdə Orta Dəhliz xüsusi əhəmiyyət daşıyır. Bu, özünü daha çox Azərbaycan ərazisindən, yəni Xəzər dənizi ilə daşınan yüklərin həcminin getdikcə artmasında göstərir. Ona görə də respublikamızın nəqliyyat və logistika imkanları davamlı şəkildə genişləndirilir. Bakı Dəniz Limanının imkanlarının 25 milyon tona çatdırılması nəzərdə nəzərdə tutulur. Dəmir yolu, gəmiqayırma zavodu və digər nəqliyyat infrastrukturu ən müasir səviyyədə qurulur.

Respublikamız artıq beynəlxalq aləmdə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə yanaşı, Orta Dəhliz marşrutu ilə də mühüm mərkəz kimi tanınır. Azərbaycanın tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini gerçəkləşdirmək üçün praktik işlər görülür. Hökumət tərəfindən dəhlizlərin inkişafına mühüm vəsait ayrılması, avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasının diqqətdə saxlanır, eyni zamanda, bütün bu infrastrukturun əsaslı təmirinin aparılması həmin dəhlizin işinin canlandırılmasını şərtləndirir.

Avrasiya bazarında yükdaşımaların dəyişməsi və yükdaşıma şirkətlərinin Orta Dəhliz istiqamətində miqrasiyası bu prosesi sürətləndirib. Avropa İttifaqı (Aİ) tərəfindən bu yaxınlarda Rusiyaya qarşı sanksiyaların 11-ci paketinin tətbiqi, o cümlədən Rusiyanın qoşqulu və yarımqoşqulu yük maşınları ilə yüklərin daşınmasına tamamilə qadağa qoyulması da Orta Dəhlizə marağı artırıb.

Qeyd edək ki, yaxın beş il ərzində Orta Dəhlizin infrastrukturuna və proseslərin səmərəliliyinin artırılmasına 5 milyard avroya yaxın investisiya qoyulacağı nəzərdə tutulur. Marşrutun Mərkəzi Asiya istehsalçılarının Türkiyə, Şimali Afrika və Cənubi Avropa ölkələri istiqamətindəki dünya bazarları ilə inteqrasiyasında mühüm rol oynayacağı gözlənilir. Marşrutun əsas məqsədi isə Çin, Qazaxıstan kimi ölkələrdən, Xəzər dənizi ilə Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Polşa, Rumıniya ərazisindən yük tranzitinin təmin olunmasından ibarətdir.

***"Xalq qəzeti"***

# Düzgün suvarma bol pambıq deməkdir

**Tərtər rayonunun Borsunlu kəndindən olan fermer Rabil Piriyev uzun illərdir ki, pambıqçılıqla məşğul olur. Cari ildə də 10 hektar sahədə bu qiymətli bitkini əkib-becərir. Rayondakı "Azərpambıq" MMC ilə müqavilə bağlamışdır.**

Fermer bildirir ki, indiyədək sahələrdə 3 dəfə becərmə işləri aparılıb. Lazım olan texnika, gübrə və ziyanvericilərə qarşı dərmanlar vaxtında çatdırıldığından indiyədək əldə olunan nəticələr ürəkaçandır.

Bəzi fermerlər zərərvericilərə qarşı dərmanların keyfiyyətsiz olduğunu və sovkanı məhv etmədiyini söyləyirlər. Bununla bağlı Rabil Piriyevin fikri fərqlidir. Onun çoxillik təcrübədən gəldiyi qənaət belədir ki, problem dərmanların keyfiyyətində deyil, bu prosesin nə zaman və necə aparılmasındadır: "Mən sovkaya qarşı mübarizə işlərini gecə saat 2-3 radələrində aparıram. Bu zaman istənilən nəticəni almaq mümkündür. Pambıqçılıqda becərmənin ən çətin mərhələsi əllə kətmənləmə dövrüdür. Bu işlər torpaq mülkiyyətçilərinin əldə etdiyi gəlirin böyük bir hissəsini aparır. Lakin, eyni zamanda, pambıqçılığın kənd əməkçiləri üçün nə qədər gəlirli sahə olduğunu sübut edir".

Hazırda tarlalarda suvarma işləri aparılır. Keyfiyyətli suvarma isə bol məhsul deməkdir. "Ağ qızıl"ın sadə sirrinə gərək əməl edəsən: pambıq kolunun başı günəşdə olduğu qədər, ayağı da gərək suda olsun.

Rabil Piriyev ötən mövsümdə orta səviyyəsindən çox–hektardan 40 sentner pambıq götürüb. Cari ildə havalar bundan sonra da əlverişli keçsə, bu göstəricini daha da artıra biləcək. Plantasiyaların bugünkü vəziyyəti bunu deməyə əsas verir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Ağdam və Füzulidə müasir tələblərə cavab verən yaşayış məhəllələri salınır

**Ağdam və Füzuli şəhərləri işğal dövründə məqsədyönlü şəkildə dağıdılıb. On minlərlə insanın yaşadığı böyük şəhərlər yerlə-yeksan edilib. Artıq o dövr arxada qalıb. Bu şəhərlərin təsdiq edilmiş baş planlarına uyğun olaraq əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verən yaşayış məhəllələri salınır.**



**Müsahibim Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyin baş məsləhətçisi Eldar Seyidov Ağdam yaşayış məhəllələrinin salınması barədə açıqlamasında bildirdi:**

– Ağdam şəhərində çoxmənzilli yaşayış binaları inşa olunur, fərdi evlərin inşasına isə yaxın vaxtlarda başlanılacaq. Ağdam şəhərinin Baş planına əsasən əhalinin 70 faizi çoxmənzilli binalarda, 30 faizi isə fərdi evlərdə yaşayacaq. Böyük Qayıdışın ilkin mərhələsində yaşayış şəraiti məqbul olmayan keçmiş məcburi köçkünlərə üstünlük veriləcək və onlar dövlət tərəfindən tikilən evlərlə təmin olunacaqlar. Bundan başqa, özəl sektor nümayəndələri də müxtəlif layihələrin icrasında iştirak edirlər.



**– Ağdamda özəl sektorun tikinti layihələrdə iştirak etdiyini bildirdiniz. Bu layihələr barədə məlumat verərdiniz.**

– Ağdam şəhərində ilk yaşayış komplekslərini özəl şirkətlər tikir. Azərbaycanın ən böyük daşınmaz əmlak şirkətlərindən biri olan "PMD Group" MMC tərəfindən "Ağdam Rezidens" yaşayış kompleksi inşa olunur. Bu kompleks Ağdam şəhərinin mərkəzinə yaxın ərazidə və əsas yolların üzərində yerləşir və ümumilikdə, 209 mənzildən ibarətdir.

6 mərtəbəli 6 binadan ibarət yaşayış kompleksi tamamlanmaq üzrədir. Kompleksin birinci mərtəbələri ticarət və iaşə obyektəri üçün nəzərdə tutulub. Burada ziyarətçilərin rahatlığı üçün hər cür şərait yaradılır. Ailələrin alış-veriş və asudə vaxtlarını birlikdə keçirə biləcəyi qonaqpərvər və inklüziv mühit təmin ediləcək, yeraltı parkinq xidməti göstəriləcək. Bu yaşayış kompleksi sözsüz ki, Ağdam şəhərinin yenidən qurulması, abadlaşdırılması və inkişafının təmin olunması istiqamətində öz əvəzsiz töhfəsini verəcəkdir.

Özəl sektor daha bir layihənin həyata keçirilməsində iştirak edir. "Park Hill" şirkəti tərəfindən "Park Qarabağ" yaşayış kompleksinin inşası davam edir. Bu kompleksin layihələndirilməsi Azərbaycanın "Azərbaycan inkişaf", ABŞ-ın "Gensler" və Türkiyənin "URAL mühəndislik" şirkətləri tərəfindən həyata keçirilib. "Park Qarabağ" yaşayış kompleksi də şəhərin mərkəzində, məscidin və gələcəkdə salınacaq mərkəzi parkının yaxınlığında inşa edilir. Eyni zamanda, yeni tikilən bina yeni açılacağı gözlənilən Ağdam–Bərdə yolunun üstündə yerləşir. Layihənin 2024-cü ildə tamamlanması planlaşdırılır.

Hazırda qeyd olunan yaşayış komplekslərinin mənzilləri satışa çıxarılıb. Əldə olunan gəlir digər yaşayış binalarının tikintisinə yönəldiləcək.

**– Ağdamın turizm potensialı nəzərə alınmaqla iki mehmanxananın inşası da davam edir. Mehmanxanalar nə vaxt istifadəyə veriləcək?**

– Ağdamın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınıb. Ona uyğun da infrastruktur yaradılır. Hazırda Ağdam şəhərində 2 mehmanxananın tikintisi həyata keçirilir. Onlar müasir səviyyədə inşa olunur və rayona səfər edəcək ziyarətçilərin rahatlığı üçün burada hər cür şərait yaradılır. Hazırda 2,16 hektar ərazidə "PMD Projects" MMC tərəfindən "Park Forest Otel Ağdam" mehmanxanasının tikintisi davam edir. 110 nömrədən ibarət olacaq mehmanxananın ərazisində əsas bina ilə yanaşı, konfrans mərkəzi, açıq havada üzgüçülük hovuzu, uşaq oyun meydançası, gəzinti yolları və istirahət zonaları yaradılır. Tikinti işlərinin 2024-cü ilin dekabrında başa çatdırılması nəzərdə tutulub.

İnşa olunan 2-ci mehmanxana isə "City Hotel Agdam"dır. 130 nömrədən ibarət olan beşmərtəbəli hoteldə də tikinti işləri sürətlə davam edir. Hər iki mehmanxana istifadəyə verildikdən sonra füsunkar təbiəti ilə seçilən, tarixi abidələri ilə tanınan Ağdamın turizm potensialının inkişafına mühüm töhfə verəcəklər. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti göstəricisi olacaq.

**– May ayında Ağdamda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyevanın iştirakı ilə 2-ci və 3-cü yaşayış məhəlləsinin təməli qoyulub. Bu məhəllələr istifadəyə verildikdən sonra keçmiş məcburi köçkünlərin köçürülməsi sürətlənəcək. Əsas köç nə vaxt baş tutacaq?**

– Ağdam şəhərində 1-ci fazada məcburi köçkünlər üçün dövlət tərəfindən çox böyük yaşayış məhəllələri salınacaqdır. Əvvəlcə 1-ci yaşayış məhəlləsi barədə məlumat verim. Belə ki, Ağdamda hazırda 1-ci yaşayış məhəlləsi üzrə layihələndirmə işləri yekunlaşmaq üzrədir. Bu yaşayış məhəlləsi şəhərin şimal-şərqində yerləşir. Şərqdən Üzərliktəpə tarixi arxeoloji abidəsi, qərbdən isə şəhərin tarixi mərkəzi ilə əhatələnib. Həmçinin "İmarət" adlanan tarixi ərazi də məhəllənin yaxınlığındadır. Burada tikiləcək 1139 mənzildə 3068 nəfər məskunlaşdırılacaq.

Ümumi sahəsi 14 hektara yaxın olan 2-ci yaşayış məhəlləsinin isə ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacaq. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Məhəllədəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunacaq. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması, geniş yaşıllıq zolaqlarının salınması nəzərdə tutulur. Layihənin 2025-ci ildə tamamlanması planlaşdırılır.

3-cü yaşayış məhəlləsi isə daha geniş ərazidə olacaq. Ümumi sahəsi 17 hektara yaxın olan yaşayış məhəlləsinin salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1 239 mənzil olacaq.



Yaşayış məhəlləsindəki binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq. Binalar daimi su, elektrik və yüksəksürətli internet ilə təmin ediləcək. Məhəllədə, həmçinin idman meydançaları, velosiped və avtomobil dayanacaqları yaradılacaq.

Ağdam şəhərinin 4-cü və 5-ci yaşayış məhəlləri isə layihələndirmədədir. Birinci layihənin 2025-ci ildə, ikinci layihənin isə 2026-cı ildə tamamlanması planlaşdırılır. 4-cü məhəllədə tikiləcək yaşayış binalarında 1220 mənzil, 5-ci məhəllədə tikiləcək yaşayış binalarında 1277 mənzil olacaq.

Ümumiyyətlə, Ağdam şəhərinin ərazisinin 23 faizi yaşıllıq zonaları (meşə və parklar) kimi nəzərdə tutulub. Onun müxtəlif istiqamətlərdə 6 giriş-çıxış yolları olacaq. Əsas üstünlük isə daha çox piyada yollarına veriləcək. Yəni şəhərdə piyada və velosiped yollarından geniş istifadə olunacaq.

Ağdam şəhərində ərazi geniş olduğu və bu səbəbdən də böyük həcmdə infrastruktur quruculuğu aparıldığı üçün məskunlaşmanın gələn ilin sonunda başlanacağı nəzərdə tutulur. İlk mərhələdə Ağdama 10 min nəfərin köçü baş tuta bilər. Ümumiyyətlə, 2026-cı ilin sonunadək Ağdam şəhərinə 20 min keçmiş məcburi köçkünün köçürülməsi planlaşdırılır.

**– Füzuli şəhərində 2 məhəllə üzrə tikinti işləri yekunlaşmaq üzrədir. Artıq şəhər sakinlərinin bir hissəsinin köçürülməsi ilə bağlı püşk də atılıb. Birinci mərhələdə neçə ailənin köçürülməsi nəzərdə tutulur?**

– MİDA tərəfindən tikilən Füzuli yaşayış kompleksinin ümumi sahəsi 8,9 hektardır və 6 məhəllədə 38 yaşayış binasından ibarətdir. Bütün mənzillər tam təmirli, mətbəx mebeli və qaz plitəsi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş vəziyyətdə keçmiş məcburi köçkünlərə veriləcək. Mənzillər həm də mərkəzləşdirilmiş qazanxana vasitəsilə istilik və məişət üçün isti su ilə təmin olunacaq. Yaşayış binaları ilə yanaşı ərazidə park, yeraltı və yerüstü avtodayanacaqlar, uşaq oyun və idman meydançaları da istifadəyə veriləcək. Hazırda məhəllənin tikintisi ilə bağlı işlər davam etdirilir və 2 məhəllə üzrə tikinti işləri yekunlaşmaqdadır. 1-ci mərhələ üzrə ümumi tikinti işləri 2023-cü ilin sonunadək tam başa çatdırılacaq.

Artıq avqustun 5-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Füzuli şəhərinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma da keçirib. Püşkatmada 144 ailə (509 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq, onlardan 51-i ikiotaqlı, 76-sı üçotaqlı, 17-si dördotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Tezliklə keçmiş məcburi köçkünlər daimi yaşayış üçün Füzuli şəhərinə qayıdacaqlar. Bu proses iki mərhələdə planlaşdırılır. Birinci mərhələ sentyabr ayına kimi reallaşacaq.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 263** **Bakı şəhəri, 4 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 63; 2021, № 4, maddə 395, № 5, maddə 505, № 9, maddə 1085) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissə üzrə:

1.1. 6.5-ci bəndə "MRT (maqnit-rezonans tomoqrafiyası)" sözlərindən əvvəl "Bu Sənədin əlavəsində olan cədvəlin 2.1.528-2.1.532-ci yarımbəndlərində nəzərdə tutulan ambulator tibbi xidmətlər," sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 6.6-6.7-ci bəndlər əlavə edilsin:

"6.6. İxtisaslaşdırılmış ambulator tibbi xidmətin göstərilməsindən dərhal sonra sığortaolunanın həmin tibb müəssisəsində stasionar şəraitdə müalicə olunmasının davamına tibbi göstəriş olduğu hallarda, stasionar müalicədən əvvəl göstərilən tibbi xidmətə görə sığorta ödənişi həyata keçirilmir, stasionar tibbi xidmətin tarifinə əsasən sığorta ödənişi hesablanır və ödənilir.

6.7. Bu Sənədin əlavəsində olan cədvəlin 2.2.1-2.2.77-ci yarımbəndlərində nəzərdə tutulan ambulator tibbi xidmətlər sığortaolunanlara aşağıdakı şərtlərlə göstərilir:

6.7.1. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən bir təqvim ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına sığorta təminatı verilən tibbi xidmət üzrə 30 (otuz) müraciət və hər bir müraciət zamanı 3 (üç) xidmətdən artıq olmamaq şərtilə sığorta limiti çərçivəsində verilir;

6.7.2. bu Sənədin 6.7.1-ci yarımbəndində nəzərdə tutulmuş müraciət üzrə say məhdudiyyəti və sığorta limiti Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək əlilliyi müəyyən olunmuş, habelə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatları zamanı xəsarət (yaralanma, travma, kontuziya) almış şəxslərə şamil edilmir.".

**2.** 7-ci hissə üzrə:

2.1. 7.1-ci bənddə "XBT-09" sözləri "XBT-9" sözləri ilə əvəz edilsin;

2.2. 7.3-cü bənddə "Sığortaolunan" sözü "Bu Sənədin əlavəsində olan cədvəlin 2.6.978-2.6.982-ci, 2.7.146-2.7.160-cı, 2.7.261-ci yarımbəndlərində nəzərdə tutulan stasionar tibbi xidmətlər istisna olmaqla, sığortaolunan" sözləri ilə əvəz edilsin;

2.3. 7.4-cü bənddə "Stasionar" sözü "Bu Sənədin 6.5-ci bəndi nəzərə alınmaqla, stasionar" sözləri ilə əvəz edilsin;

2.4. 7.5-ci bənddə "2.5.1-2.5.39-cu" sözləri "2.5.1-2.5.32-ci" sözləri ilə əvəz edilsin;

2.5. aşağıdakı məzmunda 7.6-cı bənd əlavə edilsin:

"7.6. Bu Sənədin əlavəsində olan cədvəlin 2.5.1-2.5.19-cu yarımbəndlərində nəzərdə tutulan invaziv cərrahi müdaxilə zamanı bu Sənədin əlavəsində olan cədvəlin 2.5.29-2.5.31-ci yarımbəndlərində nəzərdə tutulan xidmətlərin göstərilməsi tələb olunarsa, bu Sənədin əlavəsində olan cədvəlin 2.5.29-2.5.31-ci yarımbəndlərində nəzərdə tutulan xidmətlərin dəyəri tarifin 100 (yüz) faizi həcmində, bu Sənədin əlavəsində olan cədvəlin 2.5.1-2.5.19-cu yarımbəndlərində nəzərdə tutulan invaziv radioloji xidmətlərin dəyəri isə tarifin 50 (əlli) faizi həcmində hesablanır.".

**3.** 8-ci hissə üzrə:

3.1. 8.1-ci bənddə "2.6.1-2.6.950-ci, 2.7.1-2.7.255-ci" sözləri "2.6.1-2.6.1334-cü, 2.7.1-2.7.266-cı" sözləri ilə, "XBT-09-a" sözləri "XBT-9-a" sözləri ilə əvəz edilsin:

3.2. 8.3.3-cü yarımbənddə "2.6.1-2.6.6-cı, 2.6.29-cu, 2.6.139-cu, 2.6.268-ci, 2.6.283-cü, 2.6.286-cı və 2.6.288-ci, 2.6.336-cı və 2.6.802-ci" sözləri "2.6.1-2.6.9-cu, 2.6.14-cü, 2.6.23-2.6.25-ci, 2.6.52-ci, 2.6.442-2.6.443-cü, 2.6.463-2.6.469-cu, 2.6.563-2.6.565-ci, 2.6.604-cü, 2.6.1056-2.6.1065-ci, 2.6.1143-cü, 2.6.1167- 2.6.1171-ci, 2.6.1194-2.6.1196-cı, 2.6.1234-2.6.1236-cı, 2.6.1271-2.6.1273-cü, 2.6.1326-cı və 2.6.1330-cu" sözləri ilə əvəz edilsin;

3.3. 8.3.4-cü yarımbənddə "2.6.232-ci, 2.6.573-cü, 2.6.588-ci, 2.6.601-ci, 2.6.622-ci, 2.6.661-ci, 2.6.693-cü və 2.6.797-ci" sözləri "2.6.376-cı, 2.6.780-ci, 2.6.807-ci, 2.6.902-ci və 2.6.1132-ci" sözləri ilə əvəz edilsin;

3.4. 8.4-cü bənddə "Stasionar" sözü "Bu Sənədin 8.4-1-ci bəndi nəzərə alınmaqla, stasionar" sözləri ilə əvəz edilsin;

3.5. aşağıdakı məzmunda 8.4-1-ci bənd əlavə edilsin:

"8.4-1. Sığortaolunana bu Sənədin əlavəsində olan cədvəlin 2.6.1-2.6.1334-cü yarımbəndlərində nəzərdə tutulmuş və tarifi 200 (iki yüz) manat məbləğini aşmayan stasionar cərrahi tibbi xidmətlərin göstərilməsi zamanı sığortaolunanın 24 saat ərzində evə yazıldığı hallarda bu xidmətlərin dəyəri 100 (yüz) faiz həcmində ödənilir.".

3.6. 8.5-ci bəndə "Sığortaolunana" sözündən sonra "bu Sənədin 8.5-1-8.5-4-cü bəndləri nəzərə alınmaqla," sözləri əlavə edilsin;

3.7. aşağıdakı məzmunda 8.5-1-8.5-4-cü bəndlər əlavə edilsin:

"8.5-1. Sığortaolunana bu Sənədin əlavəsindəki cədvəlin 2.6.1-2.6.977-ci və 2.6.983-2.6.1334-cü yarımbəndlərində nəzərdə tutulmuş tarifi 200 (iki yüz) manat məbləğini aşmayan stasionar cərrahi xidmətin, həmçinin 2.6.978-2.6.982-ci yarımbəndlərində nəzərdə tutulan stasionar cərrahi xidmətin göstərilməsi zamanı stasionar terapevtik xidmətlər göstərildiyi təqdirdə hər bir stasionar tibbi xidmətin dəyəri 100 (yüz) faiz həcmində hesablanır və ödənilir.

8.5-2. Sığortaolunana bu Sənədin əlavəsində olan cədvəlin 2.7.17-ci, 2.7.109-cu yarımbəndlərində nəzərdə tutulmuş stasionar terapevtik xidmətin göstərilməsi zamanı, həmçinin 2.6.1-2.6.9-cu, 2.6.19-2.6.20-ci, 2.6.482-2.6.483-cü, 2.6.544-cü, 2.6.562-ci, 2.6.1330-cu yarımbəndlərində nəzərdə tutulan stasionar cərrahi xidmətlər göstərildiyi təqdirdə, hər bir stasionar tibbi xidmətin dəyəri 100 (yüz) faiz həcmində hesablanır və ödənilir.

8.5-3. Bu Sənədin əlavəsində olan cədvəlin 2.7.1-2.7.261-ci yarımbəndlərində nəzərdə tutulan stasionar terapevtik xidmətlərin və 2.6.1-2.6.1332-ci yarımbəndlərində nəzərdə tutulan stasionar cərrahi xidmətlərin göstərilməsi zamanı terapevtik və ya cərrahi müdaxilələrin ağırlaşmaları nəticəsində, tibbi göstərişlərə əsasən stasionar şəraitdə 22 (iyirmi iki) gündən artıq terapevtik müalicə tələb edən diaqnozlar (A00-B99), (D50-D89), (E00-E88), (G00-G97), (H01-H59), (H60-H95), (I01-I99), (J01-J21.1), (J21.9-J98), (K09-K92), (L04-L98), (M00-M96), (N00-N99), (O00-O98), (P00-P96), (S00-T95) və cərrahi prosedurlar üzrə 22 (iyirmi iki) gün müddətindən artıq olan stasionar müalicə üçün əlavə ödəniş, bu Sənədin əlavəsində olan cədvəlin 2.7.263-cü yarımbəndində nəzərdə tutulan stasionar terapevtik xidmətin tarifi əsasında hesablanır və ödənilir.

8.5-4. Bu Sənədin əlavəsində olan cədvəlin 2.7.1-2.7.261-ci yarımbəndlərində nəzərdə tutulan stasionar terapevtik xidmətlərin və 2.6.1-2.6.1332-ci yarımbəndlərində nəzərdə tutulan stasionar cərrahi xidmətlərin göstərilməsi zamanı stasionar müalicəsinin ağırlaşmaları nəticəsində, tibbi göstərişlərə əsasən reanimasiya və intensiv terapiya tədbirlərinin həyata keçirilməsini tələb edən diaqnozlar (A00-B99), (D50-D89), (E00-E88), (G00-G97), (H01-H59), (H60-H95), (I01-I99), (J01-J21.1), (J21.9-J98), (K09-K92), (L04-L98), (M00-M96), (N00-N99), (O00-O98), (P00-P96), (S00-T95) və cərrahi prosedurlar üçün əlavə ödəniş, bu Sənədin əlavəsində olan cədvəlin 2.7.264-2.7.266-cı yarımbəndlərində nəzərdə tutulan stasionar terapevtik xidmətlərin tarifi əsasında hesablanır və ödənilir.".

3.8. 8.6-cı bənddə "2.7.203-2.7.208-ci, 2.7.235-ci, 2.7.211-ci və 2.7.253-cü" sözləri "2.7.206-2.7.211-ci, 2.7.214-cü və 2.7.238-ci" sözləri ilə əvəz edilsin və həmin bəndə "müalicəsi üçün" sözlərindən sonra "eyni səbəbdən" sözləri əlavə edilsin.

**4** 9-cu hissə üzrə:

4.1. 9.1.2-ci yarımbənddə "40 (qırx)" sözləri "65 (altmış beş)" sözləri ilə əvəz edilsin.

4.2. 9.2-ci və 9.4-cü bəndlər ləğv edilsin.

**5.** Aşağıdakı məzmunda 9-1-ci hissə əlavə edilsin:

"9-1. Qaraciyər və böyrək transplantasiyasını, sümük iliyi və ya hematopoetik kök hüceyrələrin transplantasiyasını tələb edən tibbi xidmətlərin göstərilməsi şərtləri

9-1.1. Bu təminat qaraciyər, böyrək, sümük iliyi və hematopoetik kök hüceyrələrin transplantasiyasına tibbi göstərişi olan, müalicə protokolları və kliniki tövsiyələr əsasında diaqnozu təsdiqlənmiş sığortaolunanlara (resipiyentlərə) şamil edilir.

9-1.2. İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən təqvim ili ərzində icbari tibbi sığorta fondunun vəsaiti hesabına sığorta təminatı verilən qaraciyər transplantasiyasının say həddi 100, böyrək transplantasiyasının say həddi 150, sümük iliyi və ya hematopoetik kök hüceyrələrin transplantasiyasının say həddi 20 müəyyən edilir.

9-1.3. Transplantasiya xidmətlərinin göstərilməsi "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun həyata keçirilir.".

**6** 11.1.3-cü yarımbəndə "yerləşdirilməsi" sözündən sonra "və transplantasiya xidmətləri" sözləri əlavə edilsin.

**7.** "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə Əlavə yeni redaksiyada verilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.

## İcbari tibbi sığortanın Xidmətlər Zərfinə yeni tibbi xidmətlər əlavə edildi

### Nazirlər Kabinetinin 263 №-li Qərarına dair izah

Qərar Nazirlər Kabinetinin 10 yanvar 2020-ci il tarixli 5 nömrəli Qərarı ilə təsdiq edilmiş "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"ndə dəyişiklik edilməsi barədə qərarına əsasən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən xidmətlər xərfində dəyişikliklər edilərək tibbi xidmətlərin sayı və çeşidi artırılıb, eləcə də bəzi xidmətlərin qiyməti yenilənib.

Belə ki, Nazirlər Kabineti tərəfindən təsdiq edilən "İcbari tibbi sığorta üzrə Xidmətlər Zərfi"nə 794 sayda yeni tibbi xidmət əlavə edilib. Nəticədə Xidmətlər Zərfindəki tibbi xidmətlərin sayı 3344-ə çatdırılıb. Bu xidmətlərin 33-ü invaziv radioloji, 43-ü ambulator, 200-ü laborator, 522-si isə stasionar tibbi xidmətlərdir. Yeni xidmətlər sırasına vətər, əzələ, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları da əlavə olunub.

Təminata alınmış əməliyyatlar sırasına ürək qapaqlarının dəyişdirilməsi və təmiri, anadangəlmə ürək qüsurlarının cərrahiyyəsi, minimal invaziv üsulla həyata keçirilən endovaskular əməliyyatlar, beyin və beyin qişalarında aparılan əməliyyatlar, xoşxassəli beyin şişlərin çıxarılması, sümük, əzələ uzadılması, serebral iflic zamanı aşağı ətraflarda aparılan bükücü vətərin uzadılması, vətərin fiksasiyası, skolioz əməliyyatı kimi dəyəri yüksək olan tibbi xidmətlər əlavə olunub.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 281** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısının təsdiq edilməsi barədə" 2001-ci il 4 yanvar tarixli 4 nömrəli, "Vergi ödəyicisinin əldəetdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydalarının təsdiq edilməsi barədə" 2001-ci il 1 mart tarixli 55 nömrəli, "Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli, "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2004-cü il 27 avqust tarixli 118 nömrəli, "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2008-ci il 29 may tarixli 123 nömrəli və "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2010-cu il 27 may tarixli 97 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53; 2002, № 10, maddə 635; 2003, № 6, maddə 342; 2008, № 8, maddə 787; 2010, № 3, maddə 264, № 6, maddə 569; 2013, № 10, maddə 1200; 2016, № 9, maddə 1585, № 11, maddə 1976; 2019, № 3, maddə 513, № 7, maddə 1319; 2021, № 3, maddə 282, № 4, maddə 405, № 10, maddə 1159, № 12, maddə 1535; 2022, № 8, maddə 1021) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nın 1.15-ci bəndinin üçüncü abzasında "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 55 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 211; 2003, № 4, maddə 214; 2010, № 12, maddə 1126; 2013, № 6, maddə 749) ilə təsdiq edilmiş "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti (gəliri) birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin (gəlirin) hesablanması Qaydaları"nın 2-ci hissəsinin birinci abzasının birinci cümləsində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 651; 2010, № 12, maddə 1123; 2016, № 9, maddə 1585) ilə təsdiq edilmiş 12 nömrəli əlavə - "Prokurorluq işçilərinə iş stajına görə əlavə haqqın verilməsi Qaydası"nın 2.2.3-cü yarımbəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 662; 2005, № 2, maddə 134; 2006, № 3, maddə 299; 2009, № 2, maddə 157, № 10, maddə 853; 2012, № 3, maddə 252; 2014, № 6, maddə 747, № 8, maddə 1023; 2016, № 5, maddə 962, № 10, maddə 1709; 2017, № 3, maddə 487, № 11, maddə 2141; 2019, № 1, maddə 155, № 3, maddə 549; 2022, № 4, maddə 389) ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 3.4-cü, 3.6-cı, 3.7-ci, 3.8-ci və 3.10-cu bəndlərində ismin müvafiq hallarında "Vergilər Nazirliyi" sözləri ismin müvafiq hallarında "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 may tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 5, maddə 446; 2010, № 12, maddə 1123; 2012, № 4, maddə 400; 2017, № 4, maddə 620; 2021, № 11, maddə 1290) ilə təsdiq edilmiş "Ədliyyə orqanları işçilərinin qulluq illərinin hesablanması və bununla əlaqədar onlara əlavə haqqın verilməsi Qaydası"nın 2.2.3-cü yarımbəndində "Vergilər Nazirliyinin" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 27 may tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 474; 2012, № 9, maddə 917; 2016, № 5, maddə 960, № 8, maddə 1427, № 10, maddə 1734; 2017, № 2, maddə 281; 2018, № 9, maddə 1938; 2021, № 4, maddə 406; 2022, № 3, maddə 291) ilə təsdiq edilmiş "Kommersiya təşkilatlarının illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməsi və dərc edilməsi Qaydaları"nın 5.2-ci bəndində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 284** **Bakı şəhəri, 5 avqust 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Dövlət sirri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2005-ci il 15 mart tarixli 40 nömrəli, "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) ilə bağlı tədbirlər barədə" 2005-ci il 22 iyun tarixli 116 nömrəli, "Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması Qaydaları"nın təsdiq edilməsi barədə" 2006-cı il 27 mart tarixli 89 nömrəli, "Azərbaycan Respublikasında bəzi fəaliyyət növləri üzrə ixracın stimullaşdırılması haqqında" 2006-cı il 26 iyul tarixli 185 nömrəli, "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2007-ci il 13 avqust tarixli 127 nömrəli və "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonorarın minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 24 avqust tarixli 132 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında" 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü bəndinin, "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanının 3.3-cü bəndinin və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi haqqında Əsasnamə"nin təsdiqi və "Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 fevral tarixli 111 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 30 dekabr tarixli 911 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2020-ci il 12 may tarixli 1017 nömrəli Fərmanının 9.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 15 mart tarixli 40 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 254; 2006, № 3, maddə 300; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857; 2016, № 9, maddə 1585; 2017, № 4, maddə 643; 2019, № 2, maddə 340; 2023, № 4, maddə 604) ilə təsdiq edilmiş "Dövlət sirri təşkil edən məlumatlardan istifadə edilməsi, informasiyanı mühafizə vasitələrinin yaradılması, habelə dövlət sirrinin mühafizəsi üzrə tədbirlər görülməsi və (və ya) xidmətlər göstərilməsi ilə bağlı işlərin icrasına müəssisə, idarə və təşkilatların buraxılması üçün icazənin alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci hissənin yeddinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin;

1.2. 14-cü hissənin səkkizinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin.

**2.** "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) ilə bağlı tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 iyun tarixli 116 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 552; 2008, № 5, maddə 432; 2014, № 2, maddə 201, № 6, maddə 747, 2016, № 5, maddə 955) 1-ci hissəsinin ikinci abzasından "Vergilər Nazirliyi və" sözləri çıxarılsın.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 27 mart tarixli 89 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 308; 2009, № 10, maddə 853; 2017, № 9, maddə 1723; 2020, № 12 (V kitab), maddə 1580) ilə təsdiq edilmiş "Xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi, həmçinin bu nümayəndəliklərin diplomatik və inzibati-texniki işçilərinin, o cümlədən onlarla yaşayan ailə üzvlərinin şəxsi istifadəsi üçün nəzərdə tutulan mal və xidmətlərə görə əlavə dəyər vergisinin sıfır (0) dərəcə ilə tutulması Qaydaları"nın 3.1.1-ci yarımbəndinin beşinci abzasında "Vergilər Nazirliyinə" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 iyul tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 652; 2007, № 11, maddə 1187; 2014, № 1, maddə 69, № 2, maddə 201; 2016, № 5, maddə 955) ilə təsdiq edilmiş "İxrac məqsədli neft-qaz fəaliyyəti üzrə idxal əməliyyatlarında güzəştlərin verilməsi Qaydaları"nın 8-ci hissəsindən "və Azərbaycan Respublikasının Vergilər Nazirliyinə" sözləri çıxarılsın.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 13 avqust tarixli 127 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 853; 2008, № 9, maddə 853; 2016, № 9, maddə 1585, № 10, maddə 1710) ilə təsdiq edilmiş "Özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən xüsusi vasitənin əldə olunması, saxlanılması və ondan təyinatı üzrə istifadə edilməsi hüququnu təsdiq edən şəhadətnamənin verilməsi Qaydası"nın 2.1.1-ci yarımbəndində "Vergilər Nazirliyində" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 24 avqust tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 858; 2008, № 7, maddə 683; 2018, № 8, maddə 1809; 2020, № 10, maddə 1273; 2021, № 9, maddə 1050) ilə təsdiq edilmiş "Audiovizual əsərlərin və fonoqramın gəlir götürmədən şəxsi məqsədlər üçün surətinin çıxarılmasına görə qonorarın minimum məbləğinin müəyyən edilməsi, bölüşdürülməsi və ödənilməsi Qaydaları"nın 5-ci hissəsində "Vergilər Nazirliyi" sözləri "İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Tarixi yüksəlişin akkordları

## Son 20 ildə Azərbaycana 300 milyard dollardan çox sərmayə yatırılıb

(əvvəli 1-ci səhifədə)

Azərbaycana investisiya qoyuluşuna marağın getdikcə artması ölkəmizin siyasi cəhətdən sabit olması, milli, dini və irqi tolerantlığı




baxımından seçilməsi ilə bağlıdır. Bununla yanaşı, respublika hökuməti tərəfindən həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində ölkədə güclü iqtisadi potensial mövcuddur. Son 10 il ərzində iqtisadiyyatın 3 dəfə artması, müasir infrastruktur yaradılması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da bunun nəticəsidir. Yaradılan əlverişli biznes və investisiya mühiti, respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik olan mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirir. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr bu gün Avropanın enerji təhlükəsizliyinin gerçəkləşməsində mühüm rol oynayır.

Bax, elə bu və ya digər amillərin diqqət mərkəzində saxlanılması sayəsində 2004-2021-ci illərdə Azərbaycana ümumilikdə 288,9 milyard ABŞ dolları həcmində investisiya qoyulub. Təkcə 2022-ci ildə əsas kapitala yönəldilən vəsaitin məbləği 18,3 milyard manata yüksəlib. Bu dövrdə əsas kapitala yatırılan investisiyaların 80,6 faizi daxili mənbələr hesabına formalaşıb. İnvestisiyaların 5,4 milyard manatı neft, 12,9 milyard manatı qeyri–neft sektoruna yönəldilib. Bu dövrdə qeyri-neft sektoruna yatırılan investisiyanın həcmində 13,6 faiz artım qeydə alınıb.

Cari ilin yanvar–iyun aylarında isə ölkəmizdəki xarici müəssisə və təşkilatlar əsas kapitala 1 milyard 939,4 milyon manat vəsait yönəldib. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 20,7 faiz çoxdur.

Hesabat dövründə xarici investisiyaların 1 milyard 838,3 milyon manatı (94,8 faizi) Böyük Britaniya, Fransa, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Rusiya, Norveç və İran sərmayədarlarına məxsus olub.

Ümumiyyətlə, son 20 ildə Azərbaycan iqtisadiyyatına 300 milyard dollardan çox sərmayə yatırılıb. 2004-2021-ci illərdə ölkəyə 142 milyard dollar həcmində xarici investisiya qoyulub.

Dövlət başçısı İlham Əliyevin prezidentliyi müddətində qeyri-neft-qaz sahələrinə yönəldilən investisiyalar isə 7,2 dəfə artıb. Başqa sözlə, bu dövrdə Azərbaycanın qeyri-neft-qaz sektoruna 200 milyard dollar həcmində investisiya yatırılıb. Azərbaycanın digər ölkələrin iqtisadiyyatlarına qoyduğu investisiyaların ümumi həcmi isə 28,3 milyard dollar təşkil edib. Eyni zamanda, iqtisadiyyatın kreditləşdirilməsi 25,5 dəfə yüksəlib.

İnvestisiya qoyuluşunun davamlı olmasını şərtləndirən məqamlar sırasında ölkəmizdə yaradılan sabitlik, əmin–amanlıq, xalq–iqtidar birliyi, milli həmrəylik kimi amillər də önəmli rol oynayıb. Xarici sərmayədarların respublikamıza genişhəcmli investisiya qoymaq marağı da daha çox bundan irəli gəlir.

Ölkədə iqtisadi artımın getdikcə yüksəlməsi, qeyri-neft sektorunda nəzərə çarpan müsbət tendensiyalar, eləcə də biznesin davamlı olaraq şəffaflaşması da investisiya qoyuluşuna ciddi töhfə verir. Bu məsələdə Prezident İlham Əliyev tərəfindən həyata keçirilən iqtisadi islahatların, səmərəli vergi inzibatçılığının və əlverişli biznes mühitinin təmin edilməsi, cəmiyyətdə vergi mədəniyyətinin formalaşması əsaslı rol oynayır. Yeri gəlmişkən, bu gün əldə olunan fiskal nəticələrdə iqtisadi artımla yanaşı, şəffaf münasibətlərin qurulması, "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılması, biznes fəaliyyətinin və gəlirlərin leqallaşdırılması kontekstində atılan addımlar da xüsusi diqqət çəkir.

Onu da qeyd edək ki, respublikada formalaşan əlverişli biznes mühiti, ölkəmizin dünyada etibarlı tərəfdaş kimi tanınması, beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirməsi, mühüm tranzit imkanları Azərbaycanın investisiya cəlbediciliyini ilbəil artırıb. Bunun nəticəsi olaraq hökumət son 20 ildə investisiya cəlbediciliyinin, qlobal infrastruktur layihələrinin reallaşdırılması və digər mühüm istiqamətlərdə nəzərəçarpacaq göstəricilərə imza atıb.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici-institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan 1995-ci il 13 yanvar tarixli "İnvestisiya fəaliyyəti haqqında" Qanun böyük əhəmiyyətə malikdir. Bu qanun investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, "Xarici investisiyaların qorunması haqqında" Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

Azərbaycan hökuməti tərəfindən bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, habelə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli və çoxtərəfli sazişlər imzalanması da davamlı investisiya qoyuluşunu sürətləndirir. Bütün bunlarla yanaşı, ixrac rüsumlarının ləğv edilməsi, idxalda rüsumların 15 faizlik maksimal həddinin müəyyənləşdirilməsi də ölkədə investisiya mühitinin liberallaşdırılmasına, sərmayə qoyuluşunun genişlənməsinə böyük təsir göstərən amillərdən biridir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı il 30 mart tarixli sərəncamı ilə yaradılan Azərbaycan İnvestisiya Şirkəti də investisiya qoyuluşlarının təşviqi və qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrasını uğurla davam etdirir. Qurum investisiya şirkətlərinin və portfel investorların layihələrinin müştərək maliyyələşdirilməsi, investisiya qoyuluşlarının həyata keçirilməsinə qeyri-neft sektorunda fəaliyyət göstərən iri beynəlxalq təşkilatların cəlb, ölkə şirkətlərinin beynəlxalq kapital bazarlarında iştirakının təmini, iri maliyyə təşkilatlarının iştirakı ilə birgə investisiya fondlarının yaradılması və digər istiqamətdə mühüm tədbirlər reallaşdırılır.

Ölkəyə xarici investisiyaların cəlb olunması, ixrac imkanlarının genişləndirilməsi məqsədilə 2003-cü ildə yaradılan Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) da sərmayə qoyuluşu prosesində fəal rol oynayır. Fond ölkənin investisiya imicinin formalaşdırılması, yerli və xarici investorlara müxtəlif xidmətlərin göstərilməsi, investorların cəlbi və onlarla danışıqların aparılması, investisiyalar və ixrac imkanları üzrə məlumat bazasının yaradılması, Azərbaycan biznesi üçün regional ticarət (ixrac) imkanlarının araşdırılması, "Azərbaycanda istehsal olunub" ("Made in Azerbaijan") ticarət nişanının beynəlxalq səviyyədə təbliği kimi mühüm istiqamətlərdə səmərəli layihələr gerçəkləşdirir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**Mirağa ƏHMƏDOV,**
**iqtisadçı-ekspert**



İqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması məqsədilə aparılan islahatların davamı olaraq, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli sərəncamı ilə ölkəmizdə Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya yaradılıb. Komissiyanın yaradılmasında məqsəd sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühiti yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi və bu istiqamətdə digər zəruri tədbirlərin görülməsinə nail olmaqdır.

Sonda onu da qeyd edək ki, Azərbaycanın qarşısında hazırda duran əsas vəzifələrdən biri də postmüharibə dövründə azad edilmiş ərazilərdə münbit investisiya və biznes mühitinin yaradılmasıdır. Bu gün ölkə rəhbərliyi səviyyəsində həyata keçirilən layihələr dünyanın müxtəlif nüfuzlu şirkətlərinin bu ərazilərdə qlobal biznes layihələrini reallaşdırmasını stimullaşdırır. Təkcə onu demək kifayətdir ki, postmüharibə dövründə işğaldan azad edilən ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan İqtisadiyyat Nazirliyinə 1100-ə yaxın müraciət daxil olub. Müraciət edənlər arasında ABŞ, Avropa ölkələri, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya, Çin, Cənubi Koreya, İndoneziya və başqa ölkələrdən iş adamları var.

İş adamları əsasən, ticarət, xidmət, tikinti, sənaye, kənd təsərrüfatı, turizm kimi sahələrə investisiya yatırmaq maraqlarını ifadə edirlər. Bundan əlavə, Sahibkarlığın İnkişafı Fondu tərəfindən maliyyələşdirilmiş layihə sayına görə regionlar arasında Qarabağ iqtisadi rayonu 17,6 faizlə ilk yerdə qərarlaşıb. Bütün bunlar isə deməyə əsas verir ki, Azərbaycan hələ uzun illər ərzində xarici investorlar üçün cəlbedici biznes və investisiya məkanı olaraq qalacaq.

## "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" – milli sərvət xəzinəmiz

### Bu neft-qaz yataqları 7 ayda 4 milyard dollardan çox gəlir qazandırıb

**Azərbaycan Respublikası Dövlət Neft Fondunun məlumatına görə, "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları üzrə gəlirlər açıqlanıb. Açıqlamada cari ilin ötən 7 ayı ərzində "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" üzrə gəlirlərin 4 milyard 158 milyon ABŞ dolları həcmində olduğu bildirilib.**



Məlumatda bu dövrdə "Şahdəniz" yatağından (qaz və kondensat) əldə olunan gəlirin 1 milyard 141 milyon ABŞ dolları təşkil etdiyi vurğulanıb.

"Şahdəniz" yatağı üzrə kondensatın satışından isə 259,6 milyon ABŞ dolları gəlir əldə edilib.

## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 6,2 milyard manat olub

**Dövlət Vergi Xidmətinin açıqlamasına əsasən, 2023-cü ilin yanvar-iyul aylarında bu qurumun xətti ilə dövlət büdcəsinə 11 milyard 231 milyon manat vergi daxil olub.**



Məlumata görə, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 22,9 faiz və ya 2,1 milyard manat artıb.

Qeyri-neft-qaz sektorundan daxilolmalar 6,2 milyard manat təşkil edib. Keçən ilin eyni dövrünə nisbətən bu sektordan vergi daxilolmaları 19 faiz və ya 984 milyon manat çoxalıb.

Ödənilən vergilərin 45,1 faizi neft-qaz, 54,9 faizi isə qeyri-neft-qaz sektorunun payına düşüb.

## Sumqayıtın yeni kimya kompleksində 8,67 milyard manat məhsul satılıb

**Cənubi Qafqazın ən böyük sənaye parkı olan Sumqayıt Kimya Sənaye Parkında ümumi investisiyaların həcmi 5,7 milyard manatdan artıq olan 37 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bu rezidentlərdən hazırda 20-si fəaliyyət göstərir. Bu il sənaye parkında daha 4 müəssisənin fəaliyyətə başlaması planlaşdırılır.**



İndiyədək parkın rezidentləri tərəfindən ümumilikdə 8,67 milyard manatdan çox məhsul satışı həyata keçirilib ki, bunun da 3,12 milyard manatdan çox hissəsi (təxminən 36 faizi) ixracın payına düşüb. Cari ilin birinci yarısında sənaye parkında 1,3 milyard manatlıq məhsul istehsal, 446,3 milyon manatlıq məhsul isə ixrac edilib.

Cari ilin birinci yarısında 1,3 milyard manatlıq məhsul istehsalı ilə bu müəssisənin ölkə sənayesinin qeyri–neft sektorunda xüsusi çəkisi 15,2 faiz, qeyri–neft sənaye məhsullarının ixracında isə 19,6 faiz (446,3 milyon manat) olub.

Sənaye parkında istehsal olunan məhsullar dünyanın 60-a yaxın ölkəsinə, ümumilikdə Türkiyə, Yaponiya, ABŞ, Kanada, İtaliya, Çin və digər ölkələrə ixrac olunub.

## Qazlaşdırma səviyyəsi 96 faizi ötüb

### İlin sonunadək daha 50 kənd qazlaşdırılacaq

**Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) "Azəriqaz" İstehsalat Birliyinin şöbə rəhbəri Teymur Cəfərovun bildirdiyinə görə, cari ilin yanvar-iyul aylarında ölkədə artıq 90-dək yaşayış məntəqəsində paylayıcı və daşıyıcı qaz xətlərinin çəkilməsi işləri davam etdirilib. Bu ilin sonunadək isə daha 50 kəndin qazlaşdırılmasına başlanılması nəzərdə tutulub.**



O qeyd edib ki, hazırda ölkə ərazisində qazlaşdırılma səviyyəsi 96,3 faiz təşkil edir. Bu, kifayət qədər yüksək göstəricidir. Amma buna baxmayaraq, növbəti illərdə də qazlaşdırılma işləri davam etdiriləcək. Ümumilikdə, 2023-cü ildə 140 yaşayış sahəsinin qazlaşdırılması həyata keçiriləcək.

***"Xalq qəzeti"***

# Yeniləşmiş sosial-iqtisadi inkişaf strategiyası

## Yüksək iqtisadi artıma və müasir keyfiyyətə keçid

**Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda növbəti 5 ildə yeni inkişaf modelinin ölkəmizdə əsaslı keyfiyyət dəyişikliyi yaradacağı nəzərdə tutulur.**

Bu mərhələdə yüksək, dayanıqlı, inklüziv iqtisadi artım templərini bərpa etməklə, hər bir vətəndaşın sabit təminatlı həyat səviyyəsinə nail olmaq qarşıya başlıca vəzifə kimi qoyulur. Həmçinin bu zaman başlıca vektor artımının səviyyəsindən çox, onun keyfiyyətinə əsaslanılacağı bildirilir.

Sənəddə strateji dövrdə yeni artım modelinin özəl təşəbbüslərə, keyfiyyətli və sağlam insan kapitalına söykənəcəyi, dayanıqlı, inklüziv inkişafı gerçəkləşdirən özəl təşəbbüslər və rəqabətqabiliyyətli açıq iqtisadiyyat modeli müasirləşmə strategiyasının əsas qüvvəsi olacağı diqqətə çatdırılır.

Strategiyada, eyni zamanda, bütün bunlarla yanaşı, rəqabətliliyin ölkədə adambaşına düşən milli gəlirin uzunmüddətli dövrdə sabit artmasına və insanların həyat standartının yüksəldilməsinə imkan yaradacağı, iqtisadiyyatın rəqabətliliyi əsas təməl olan məhsuldarlığın dərinləşəcəyi əminliyi ifadə edilir, mühüm vəzifələr kimi önə çəkilir.

Bu strateji dövrdə özəl və məhsuldar investisiyalar, keyfiyyətli institutlar, müasir bilik və bacarıqlara malik insan kapitalı, sağlam cəmiyyət, innovasiya və yeni texnologiyalar, həmçinin makroiqtisadi sabitlik sayəsində yüksək məhsuldarlığa nail olunacağı inamı xatırladılır.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə sözügedən Strategiyada bir sıra dəyişikliklər edilib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Monitorinq və qiymətləndirmə şöbəsinin Sosial-iqtisadi proqramların monitorinqi sektorunun müdiri Təranə Salıfovanın bu dəyişiklikdən irəli gələn məsələlərlə bağlı redaksiyamıza daxil olan şərhində deyilir:

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda edilən dəyişikliklərə əsasən, davamlı və yüksək iqtisadi artımın təmin olunmasına xidmət göstərən dəyişikliyə əsasən, adıçəkilən strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi hədəflənir.



Dəyişiklikdən əvvəl müvafiq göstəricilər ümumi dövlət borcunun ÜDM-də payının 20 faiz, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10 faiz ətrafında saxlanması nəzərdə tutulmuşdu. Prezident İlham Əliyevin 11 iyul 2023-cü il tarixində keçirilmiş cari ilin ilk altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də qeyd etdiyi kimi, ötən dövr ərzində qoyulmuş hədəfə nail olunub, xarici dövlət borcumuz 6,7 milyard dollar təşkil etməklə ÜDM-in təxminən 10 faizini təşkil edib.

Müvafiq dəyişikliklərdən irəli gələrək 2023-cü ilin II yarımili üzrə strategiyada nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorlarının illər üzrə bölgüsünü müəyyən edən İndikator cədvəli yenidən nəzərdən keçirilməklə aralıq və yekun nəticə indikatorlarında da müvafiq dəyişikliklər öz əksini tapacaq.

Yuxarıda qeyd etdiyimiz dəyişikliklər Azərbaycan Prezidentinin 2022-ci il 30 dekabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiyanın 2022–2025-ci illər üzrə yenilənməsi çərçivəsi"ndə öz əksini tapıb.

Bununla yanaşı, Çərçivə sənədində bir sıra əlavə dəyişikliklər də edilib. Belə ki, xarici dövlət borcunun qaytarılması ilə yanaşı, ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədlərindən irəli gələrək prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi üçün 5 milyard ABŞ dollarınadək xarici borcun cəlb edilə biləcəyi qeyd olunub. Bu səbəbdən xarici dövlət borcunun ÜDM-yə nisbəti göstəricisi (10 faiz) xarici dövlət borcunun nominal ifadədə təsbit olunan yuxarı hədd göstəricisi (10 milyard ABŞ dolları) ilə əvəzlənib.

Yeni dəyişikliyə əsasən, 2025-ci ilin sonuna xarici dövlət borcunun 7,1 milyard ABŞ dolları məbləğində, yəni ÜDM-in 10,7 faizi həcmində olması gözlənir. Bununla belə, mövcud xarici dövlət borcunun qaytarılması, eləcə də ölkənin sosial-iqtisadi inkişaf templərinə əlavə təkan verilməsi məqsədilə prioritet sahələrdə investisiya layihələrinin maliyyələşdirilməsi səbəbindən bu göstəricilərin dəyişəcəyi də istisna edilmir.

***"Xalq qəzeti"***

“Xalq TV”nin qonağı

# Dünya şöhrətli alim, Vətən sevdalı soydaş

## Müsahibimiz Türkiyənin Bilkənd Universitetinin professoru Əmirulla Məmmədovdur

**Azərbaycan və Türkiyə əsrlər boyu ortaq dəyərlər üzərində inkişaf etmiş, sevincini birlikdə paylaşmış, dar gündə bir-birinə dəstək olmuşdur. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, bizim günlərdə isə xalqlarımız ən yüksək səviyyədə yaxınlaşaraq, bütövləşərək "bir millət, iki dövlət" olmuşlar.**

Türkiyə və Azərbaycan arasındakı dostluq-qardaşlıq münasibətləri əbədi olduğu qədər də sarsılmazdır. İndi həmsöhbət olduğumuz Əmirulla Məmmədov bu birliyi yaşadan və inkişaf etdirən ictimai fəallardan biri olmaqla, həm də hər iki ölkədə seçilən ziyalılardandır. Soydaşımız ömrünün 50 ilini Azərbaycandan kənarda yaşasa da bütün varlığı ilə xalqına, torpağına bağlı olub.

Qısaca olaraq onu belə təqdim etmək olar: Fizika-riyaziyyat elmləri doktoru, Türkiyənin məşhur Bilkənd Universitetinin professoru, Nanotexnologiya Elmi Mərkəzinin baş elmi işçisidir. Ölkəmizdə isə Dövlət Mükafatı laureatı olması, Əməkdar elm xadimi adına layiq görülməsi, “Dostluq” ordeni ilə təltif edilməsi ilə seçilir. Keçən il Azərbaycan Prezidentinin sərəncamı ilə Türkiyə – Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) Qəyumlar Şurasının üzvü və sədr müavini təyin edilib.

Əmirulla Məmmədov Azərbaycanda və bir sıra xarici ölkələrdə ferroelektriklər fizikası, vakuum ultra-bənövşəyi spektroskopiyası, qeyri-xətti optika və nanotexnologiya sahələrində elmi tədqiqatları ilə məşhurdur. O, ölkəmizdə və Türkiyədə bu sahələrdə apardığı elmi işlərdə ciddi uğurlar qazanıb, elmi məktəblərin təməllərini qoyub. 30-dan çox elmlər namizədi, elmlər doktoru və professor yetişdirib. Tələbələri bir çox ölkələrdə, eləcə də BDU-da elmi araşdırmalarla məşğul olurlar.

Dünyanın nüfuzlu elmi jurnallarında 350-dən çox məqaləsi çap olunub, 50-dən çox beynəlxalq konfransda məruzələrlə çıxış edib. Alimin araşdırmalarının nəticələri fizika elminin müvafiq sahələrində və müdafiə sənayesində geniş tətbiq olunur. BDU-da görkəmli alimlə bağlı son görüşdə rektor Elçin Babayev bildirib ki, Əmirulla müəllim Azərbaycan elminin, eləcə də BDU-nun fəxridir. Soydaşımız Türkiyədə yaşamasına və çalışmasına baxmayaraq, elmi məqalə və nəşrlərində hər zaman ali təhsil aldığı, ilk elmi tədqiqatla məşğul olduğu, doğma münasibət bəslədiyi universitetin adını daim qeyd edir və alimlərimiz ilə davamlı ünsiyyətdədir.

Əmirulla müəllim bugünlərdə redaksiyamızın qonağı oldu, Xalq TV-nin suallarını cavablandırdı. Həmin müsahibəni yığcam şəkildə qəzetimizin oxucularına təqdim edirik.

**– Professor, gəlin həyat yolunuza qısaca nəzər salaq...**

– Bakıda doğulmuşam – Fatmayı kəndində. Bakı Dövlət Universitetinin, o vaxtlar Azərbaycan Dövlət Universiteti adlanırdı, fizika fakültəsinin məzunuyam. Elmi fəaliyyətim də bu təhsil ocağı ilə bağlıdır. Harada olmağımdan asılı olmayaraq BDU mənim üçün bu gün də ən əziz və doğma bir məkandır. Sonrakı fəaliyyətim Rusiyanın Leninqrad (indiki Sankt-Peterburq), Amerikanın Kaliforniya ştatında olub. Qeyd edim ki, bu dövrdə Los-Anceles şəhərində yerləşən Kaliforniya Texnologi və Stenferd Universiteti kimi təhsil ocaqlarından dəvət alıb mühazirələr oxumuşam. Sonra Yaponiyadan aldığım dəvət məni yenidən bir neçə il Bakıdan ayırıb.



**– Sovet dövlətinin dəmir hasarlar dövründə xaricə getməyiniz necə mümkün oldu?**

– Açığı, bunlara bir tale işi kimi baxıram və hesab edirəm ki, bu, xeyli dərəcədə təsadüflərlə bağlıdır. 70-ci illərin əvvəlində xaricdə keçirilən bir elmi konfransa dəvət aldım, məruzəm ciddi marağa səbəb olmuşdu. Amerikalı alimlər isə mənimlə daha yaxından maraqlandılar, sonra məni ölkələrinə dəvət etdilər. Sonradan bildim ki, onlar Amerikanın Müdafiə Sənayesində çalışan alimlər imiş. Amma 1972-ci ildə edilən dəvətə 5 il sonra icazə verildi. Ən son mərhələdə Azərbaycan KP MK-nın Büro iclasında xaricə getməyimə icazə verildi.

İş yerim Amerikanın Kaliforniya ştatındakı Dənizaltı Silah Araşdırma Mərkəzinin Maykenson laboratoriyası oldu. Müqavilə vaxtı bitən ərəfədə Yaponiyadan, bu ölkənin müdafiə sənayesində önəmli yer tutan Nipen elektronika şirkətindən dəvət aldım. Səfirliyə müraciətim etirazla qarşılandı və bunun da bəlli səbəbləri var idi. Amma şükürlər olsun ki, ciddi təkidlərdən sonra icazə verildi. 80-ci illərin əvvəllərində, xüsusən də sovet rəhbəri Leonid Brejnevin ölümündən sonra isə ölkədə ab-hava xeyli dəyişdi. Yaponiyadan sonra İtaliyada fəaliyyətimi davam etdirdim, Portuqaliya ilə elmi əlaqələrim quruldu.

**– Sonda isə Türkiyə. Bu necə oldu?**

– Bu da bir xoşbəxt təsadüf idi. Romada küçədə bir insanla tanışlığım taleyimin sonrakı hissəsini Türkiyə ilə bağladı. Türk dünyasına və türkçülüyə böyük xidmətləri ilə imza atan, türk sevdalı professor Turan Yazqanla, qəbri nurla dolsun, təsadüfi bir tanışlıq məni Türkiyəyə gətirdi və indiyədək Türkiyəyə bağlandım. İstanbul Texniki Universiteti, Adana Çukurova Universiteti, sonra isə Bilkənd Universitetində çalışdım. Eyni zamanda, Türkiyənin Müdafiə Nazirliyinin Strateji Mərkəzində və qardaş ölkənin müdafiə sənayesində xüsusi yeri olan “Aselsan” şirkətində fəaliyyətim davam etdi. Bəlli yaşdan sonra dövlət təqaüdündə olsam da elmi fəaliyyətim davam edir. Bilkənd Universitetinin professoru və Nanotexnologiya Elmi Mərkəzinin baş elmi işçisiyəm.

**– Azərbaycan cəmiyyəti sizi həm də fəal ictimai xadim kimi tanıyır. Mətbuatda dərc edilən çoxsaylı müsahibələriniz, elə son vaxtlar bizim qəzetə verdiyiniz siyasi şərhlər də bunu təsdiqləyir.**

– Mən elm adamı olsam da cəmiyyətə həmişə açıq olmuşam. Xüsusən də, doğma Azərbaycanda baş verənlər, Vətənə qarşı haqsızlıqlar bir insan kimi məni həmişə ciddi narahat edib. O vaxtlar bizim güclü bir diaspor qurumumuz olmasa da, öz təşşəbbüslərimizlə bəzi işlər görməyə cəhd edirik. Keçən əsrin 80-ci illərin sonunda Elçin Əfəndiyevin rəhbərliyi ilə qurulan “Vətən” Cəmiyyəti isə xaricdə yaşayan azərbaycanlılar üçün xoş bir müjdə idi. Fəaliyyətlərimiz genişləndi.

İlk dəfə Adana və Çukurova bələdiyyələrinin dəstəyi ilə Xocalı soyqırımını tanıdan tədbir keçirdik. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi olaraq qurulan Diaspora İş üzrə Dövlət Komitəsi xaricdə daha önəmli işlərin aparılmasına imkan yaratdı. Fəxr hissi ilə deyə bilərəm ki, bu qurumun fəaliyyətində yaxından iştirak edənlərdən oldum, bütün qurultayların nümayəndəsi oldum.

Türkiyədə isə bir xeyriyyə cəmiyyəti yaratmaq istədim, adını da seçdim: Heydər Əliyev adına Xeyriyyə Fondu. Düzdür, onda Türkiyədə fəaliyyətdə olan dərnəklərin sayı-hesabı yox idi, o cümlədən Azərbaycanla bağlı çoxsaylı dərnəklər yaradılmışdı. Ermənilərin bu gün də fəaliyyət göstərən və maddi dəstəkləri kifayət qədər zəngin olan 70-dən çox xeyriyyə fondları olsa da , azərbaycanlıların bir xeyriyyə cəmiyyəti yox idi. Xeyriyyə fondu yaratmaq istədiyimi Azərbaycanın dövlət qurumlarına və əlaqədar təşkilatlara bildirdim. Az keçməmiş cavab gəldi ki, Ankarada İhsan Doğramacı 90-cı illərin sonunda belə bir qurum yaradıb.

Ulu öndər Heydər Əliyevin dəyərli dostlarından olan, dünyanın 200-dən çox beynəlxalq mükafatı və ordeni, həmçinin Azərbaycanın ali mükafatları – “İstiqlal” ordeni (2000) və “Heydər Əliyev” ordeni (2005) ilə təltif olunmuş İhsan bəy Azərbaycan səfirliyinin yanında yer alıb bina tikdirmiş və Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunu (TADİV) Heydər Əliyevin xeyir-duası ilə yaradıbmış. İhsan bəyin ölümündən sonra fond bir müddət fəaliyyətsiz qalmışdı. Sonradan dövlətimiz bu quruma sahib çıxdı və fond fəaliyyətini bərpa etdi.

**– Yəqin o vaxtdan ictimai-siyasi fəaliyyətinizi bu qurumla bağladınız...**

– Bəli, fond fəaliyyətini bərpa edəndən sonra mənə də dəvət gəldi. Həm İdarə heyətinə, həm də fondun Qəyyumlar Şurasına üzv seçildim. Az sonra işlərin çoxluğunu və yaş etibari ilə də gənclərin önə çəkilməsini vacib hesab edərək yalnız Qəyyumlar Şurasında təmsil olunmağa qərar verdim. Fondun rəhbəri isə Azərbaycan xalqının yetişdirməsi olan, dəyərli elm və siyasət adamı, həm də xeyli gənc olan Aygün xanım Attar seçildi. Fondun həm Qəyumlar Şurasında, həm də İdarə heyətində kifayət qədər hörmətli adamlar təmsil olunur. Azərbaycanın Türkiyədəki səfiri də bu heyətin üzvüdür. Qəyumlar Şurasında yenə dostumuz Şamil Ayrım da təmsil olunur. Uzun illər TBMM-də Türkiyə – Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri, indi Ankara Universitetinin rektoru olan Nejdət Ünivar fondun Qəyyumlar Şurasının üzvləri sırasındadır.

**– Üzləşdiyiniz hansısa çətinliklər varmı?**

– Bəzi maddi sıxıntılar olsa belə fəaliyyətimizi zamanın tələbləri əsasında qurmağa çalışırıq. Azərbaycan dövlətinin və Diasporla İş üzrə Dövlət Komitəsinin yardım və köməyini daim hiss edirik. Fondun yeni bir bölməsi yaradıldı ki, həm Türkiyəyə gələn azərbaycanlılara kömək olsun, həm də bəzi cari işlərin xərclərini ödəmək üçün vəsait qazanılsın. Əsas məqsədi adamlara kömək olan bu bölmə müəyyən qazanc da gətirmək imkanındadır. Bizim, xaricdə yaşayan azərbaycanlıları birləşdirən müqəddəs bir amacımız var: hər zaman Azərbaycana arxa durmaq, üçrəngli bayrağımızı daha uca zirvələrə qaldırmaq!

**– Xaricdən baxanda Azərbaycan necə görünür?**

– Əslində, bu mənə son vaxtlar tez-tez verilən suallardandır. Şükürlər olsun ki, əvvəlki illərdən fərqli olaraq indi çox qürurla və həvəslə cavablandırmaq imkanım var. Son dövrlərdə baş verənlər – Azərbaycanın böyük Zəfərlə yekunlaşdırdığı 44 günlük Vətən müharibəsi, işğaldan azad olunmuş ərazilərdə ölkəmizin postmüharibə mərhələsində start verdiyi bərpa işləri, tarixi Şuşa Bəyannaməsinin imzalanması bu qüruru və güvənci daha da artırır.

Eyni zamanda, Azərbaycanla Türkiyənin bir-birinə necə möhkəm tellərlə bağlı olduqlarını bütün dünyaya göstərir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də Şuşada imzaladıqları Bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoydu və sarsılmaz birliyimizi bütün dünyaya nümayiş etdirən bir mesaj oldu.

İkinci Qarabağ müharibəsi Cənubi Qafqazdakı və qonşu ölkələrdəki vəziyyəti tamamilə dəyişdi. Azərbaycan Ordusunun müzəffər yürüşü regionun iqtisadi və mədəni inkişafı üçün zəmin yaratdı. İşğala son qoyulduqdan sonra regionun çiçəklənən bölgəyə çevrilməsi üçün fövqəl işlərə başlanıldı. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsindəki qələbədə həlledici rol oynadı, müasir müharibədə yüksək səviyyə və geniş baxış bucağı nümayiş etdirdi. Azərbaycan Silahlı Qüvvələrinin, həm də ölkənin müdafiə sənayesinin inkişaf etdirilməsi istiqamətində böyük işlər görülüb və görülməkdədir.

Azərbaycan hazırda Qafqazın hegemon dövləti olmaqla, həm də regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi üçün təşəbbüslərin icraçısıdır. Yaxşı olardı ki, dünya bu reallıqları daha tez qəbul etsin.

**– Maraqlı müsahibə üçün çox sağ olun.**

***Söhbəti hazırladı:***
***Namiq ƏHMƏDOV,***
***“Xalq qəzeti”***

# Ağalı 106 övladını da qoynuna aldı

**Böyük Qayıdışın növbəti mərhələsi çərçivəsində dünən Bakı şəhərindən Zəngilan rayonunun Ağalı kəndinə köçürülən 106 nəfərdən ibarət 22 ailə Ağalı kəndində qəbul edilib.**

Doğma yurda qayıdanları Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları “Ağıllı kənd”də qarşılayıblar. Sonra Ağalı sakinlərinin ailə başçılarına evlərinin açarları təqdim edilib.

Böyük Qayıdış layihəsi çərçivəsində bu günədək Zəngilan rayonunun Ağalı kəndinə ümumilikdə 526 nəfərdən ibarət 108 ailə köçürülüb. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi əsasən daha ağır şəraitdə yaşayan vətəndaşlardır. Köçürülən ailələri müvafiq qurumlar peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcək. Onlar müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və digər yerlərdə çalışacaqlar.

Köçürülmüş əhali üçün bütün infrastruktur şərait - dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və





sair imkanlar mövcuddur.

**Ağalıya qayıdan kənd sakini İlqar Məmmədov sevincini belə ifadə edib:**

– Ağalıdan getməyimizi acı, ağrılı duyğularla xatırlayıram, o zaman mənim 6 yaşım var idi. Prezident İlham Əliyevin, Azərbaycan Ordusunun sayəsində bu gün doğulub boya-başa çatdığım yurduma qayıdıram. İndi çox fərəhli bir gündür. Çünki böyük sevinc hissi ilə doğma yurduma qayıdırıq.

**Heyran Məmmədova həsrətinə son qoyulan məqamda söyləyib:**

– Çox sevinirəm ki, bu gün igidlərimizin, şəhidlərimizin sayəsində öz el-obamıza – Ağalıya qayıtdıq. Xatırlayıram ki, mən kənddən çıxanda 30 yaşım var idi. Hazırda 60 yaşındayam. Ağalıdan gələndə yoldaşımla gəlmişdim, bu gün isə övladlarımla qayıdıram. İnanırıq ki, hər şey yaxşı olacaq.

**Doğma yurda dönən Raya Məmmədova isə məmnunluqla bildirib:**

– Erməni təcavüzü nəticəsində torpaqlarımızdan göz yaşı ilə ayrılmışdıq. Bu gün isə vətənpərvərlik ruhunda böyüdülmüş şəhidlərimizin qanı-canı bahasına, rəşadəti və müzəffər Ordumuzun cəsarəti sayəsində azad etdikləri torpaqlarımıza qayıdırıq. Buna görə Prezident İlham Əliyevə və Ordumuza borcluyuq.

***“Xalq qəzeti”***

# Şəkidə Aqrar İnnovasiya Festivalı

**Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə növbəti Aqrar İnnovasiya Festivalına start verilib.**



Kənd Təsərrüfatı Nazirliyindən qəzetimizə bildirilib ki, toxum bazarının və yerli toxumçuluğu inkişaf etdirmək, həmçinin payızlıq əkinlər ərəfəsində fermerlərin sertifikatlaşmış, iqlimə uyğun, keyfiyyətli toxuma əlçatanlığını təmin etmək məqsədilə Şamaxı, Ağstafa, Qusar, Ağcabədi, Hacıqabul, Sabirabad, Biləsuvar rayonlarında toxum-sərgi satış yarmarkaları təşkil olunacaq. Yarmarkalar Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi, Aqrar Xidmətlər Agentliyi, Dövlət Toxum Fondu və Azərbaycan Toxumçular Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilir.

Toxum sərgi-satış yarmarkaları ilə bağlı hazırlanmış səyyar karvan vasitəsilə mövsüm boyu Azərbaycanın 30-dan artıq bölgəsində fermerlərə məlumatlar təqdim olunacaq. Şəkidəki festivalda toxum sərgi-satışı ilə yanaşı festivalların ənənəsinə uyğun olaraq müxtəlif kənd təsərrüfatı texnologiya və məhsulların nümayişi, eləcə də fermerlərin maarifləndirilməsi üzrə təlimlər keçirilib.

Festivalda Kənd Təsərrüfatı Nazirliyinin qurumları və digər dövlət müəssisələri, yerli toxum istehsalçıları, iri toxum istehsalı və satışı ilə məşğul olan şirkətlər eləcə də kənd təsərrüfatının digər sahələrinin ixtisaslaşmış yerli şirkətlər iştirak ediblər.

Sərgidə dənli, (arpa, buğda), tərəvəz bitki sortları və toxumları, kənd təsərrüfatı təyinatlı müxtəlif pilotsuz uçuş aparatları, texnika və aqreqatlar, innovativ suvarma texnologiyaları, alternativ enerji mənbələri, pambıq əkinində tətbiq olunan yeni texnologiyalar, müasir texnologiyalar əsasında əldə olunmuş əkin materialları, gübrə, pestisid nümunələri nümayiş olunub.

Festival ərzində fermerlərə “Taxıl bitkilərinin aqrotexniki qulluq qaydaları, düzgün toxum seçilməsi” mövzusunda təlim keçirilib, sertifikatlı toxumun əldə edilməsi, təmizlənməsi mövzuları istiqamətində məlumatlar verilib.

Bu il ilk dəfə olaraq toxum sərgi-satış yarmarkaları Aqrar İnnovasiya Festivalları çərçivəsində keçirilir. Növbəti Aqrar İnnovasiya Festivalı avqustun 18-də Şamaxı rayonunda təşkil olunacaq.

***“Xalq qəzeti”***

*Dostluq körpüsü*

# Özbəkistanda Azərbaycan dünyası

## *Ölkəmizdə də qardaş xalqın öz aləmi var*

**Özbəkistanda Azərbaycanı, musiqimizi, incəsənətimizi çox sevirlər. Elə bir özbək toyu olmaz ki, Azərbaycan musiqisi səslənməsin, mahnılarımız oxunmasın. Klassik filmlərimiz Özbəkistan televiziyası ilə tez-tez göstərilir. Axı biz də özbək incəsənətini və mədəniyyətini çox sevirik. "Daşkənd çörəkli şəhərdir" filminə kim baxmayıb? Mərhum müğənni Batır Zakirovun, onun qardaşı Fərrux Zakirovun Bakıdakı konsertləri yaddaşlardan silinə bilərmi?**



Hələ 18 il əvvəl Daşkənddə soydaşlarımızın yığcam yaşadıqları Tezikovka yaşayış sahəsində Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) üçün ayrıca bina tikilib və binanın qarşısında Heydər Əliyevin abidəsi qoyulub və bu mərkəzə ulu öndərin adı verilib.

Azərbaycanın Özbəkistandakı səfirliyinin və AMM-nin təşəbbüsü ilə burada müxtəlif layihələr həyata keçirilir. Mədəniyyət Mərkəzi bu ölkədə mədəniyyətimizin və incəsənətimizin təbliğatçısı kimi çoxsaylı tədbirlər keçirir, Azərbaycanın şair və yazıçılarının kitablarını özbək dilində çap etdirir. Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasovdur.

Neçə illər mərkəzin nəzdində Kövkəb Əliyevanın rəhbərliyi ilə "Azərbaycan qızları" uşaq rəqs ansamblı (İlk adı "Bülbüllər" olub) fəaliyyət göstərib. Kövkəb xanım rəhmətə gedəndən sonra isə bu ansambl onun adını daşıyır və fəaliyyətini davam etdirir. 1997-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Özbəkistanda səfərdə olarkən rəqs ansamblının çıxışları xoşuna gəlib, onları bir həftəliyə Azərbaycana qastrola dəvət edib, Bakıda konsertləri olub.

Hələ 1997-ci ildə Səmərqənddə keçirilən "Şərq təranələri" birinci Beynəlxalq Musiqi Festivalında gənc xanəndə Simarə İmanova "Qran pri"yə layiq görülüb. Sonrakı illərdə Alim Qasımov, Aygün Bəylər, Qoçaq Əskərov birinci, Zabit Nəbizadə ikinci mükafat alıb. 2017-ci ildə keçirilən "Şərq təranələri" XI Beynəlxalq Musiqi Festivalında isə gənc tarzən, Əməkdar artist Sahib Paşazadə yenidən "Qran-pri"-ni Azərbaycana aparıb.

Zaman-zaman Azərbaycanda və Özbəkistanda keçirilən mədəniyyət günləri xalqlarımızı və ölkələrimizi bir-birinə daha da yaxınlaşdırıb. 1979-cu ildə Azərbaycanda keçirilən ədəbiyyat və incəsənət günlərində elm, ədəbiyyat və incəsənət xadimləri K.Yaşen, Q.Qulam, Zülfiyyə, T.Tülə, Şükrullo, A.Muxtar, A.Aripov, N.Nərzullayev, İ.Ametov, Mirmöhsün, N.Səfərov, ədəbiyyatşünas Ə. Kayumov və başqaları iştirak ediblər. Özbəkistan ədəbiyyatı və incəsənəti günlərində Özbəkistandan gələn nümayəndə heyəti Azərbaycanın şəhər və rayonlarında 190 görüş keçirib, 100-dən çox konsert veriblər.

1980-ci ilin iyununda isə Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günləri keçirilib. On gün ərzində Azərbaycan şairləri bir çox görüşdə iştirak ediblər. Azərbaycanın Xalq şairi Mirvarid Dilbazi Özbəkistanın Xalq şairi, Lənkəranın fəxri vətəndaşı Zülfiyyəyə şairin mis üzərində döyülmüş portretini hədiyyə verib.

1978-ci ildə Azərbaycan bəstəkarları və musiqişünasları Səmərqənddə muğam sənətinə həsr olunmuş Beynəlxalq musiqi simpoziumunda iştirak edibər. O illərdə Azərbaycan rəssamlarının sərgiləri Daşkənddə nümayiş etdirilib, Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov və başqalarının 42 əsərindən ibarət sərgi açılıb.

Keçmiş SSRİ dövründə Daşkənddə keçirilən Asiya və Afrika ölkələrinin I Beynəlxalq kinofestivalında "Ulduzlar sönmür", "Salam, Azərbaycan" filmləri nümayiş etdirilib və Özbəkistana gələn sənətkarlar arasında Adil İsgəndərov, rejissor Əjdər İbrahimov da olub. 1973-cü ildə "Özbəkfilm" studiyasının çəkiliş qrupu iki seriyalı "Əbu Reyhan Biruni" filminin bir sıra kadrlarını Bakıda-Şirvanşahlar sarayında və Qız qalasında çəkiblər.

Azərbaycanın Xalq artisti Rasim Balayev "Özbəkfilm"in çəkdiyi "Alovlu yollar" filmində (rejissor Şuxrat Abbasov) Buxara Əmiri rolunu canlandırıb. R.Balayev "Özbəkfilm"də Latif Fayziyevin "Oyanış" filmində də baş rolda oynayıb. Özbəkistanda Azərbaycan ədəbiyyatı və incəsənəti günlərində "Nəsimi", "Qayınana", "Qərib cinlər diyarında", "Mezozoy əhvalatı", "Sönmüş ocaqların işığı" və s. filmlərimiz nümayiş etdirilib.

Elə bu günlərdə, avqustun 1-dən 4-dək Azərbaycanda Özbəkistan Mədəniyyəti günləri keçirilib. Özbəkistandan Bakıya 200-dən artıq mədəniyyət və incəsənət xadimi gəlib. Heydər Əliyev Sarayında keçirilən açılış mərasimində Azərbaycanın və Özbəkistanın mədəniyyət nazirləri Adil Kərimli və Azadbek Nazarbekov çıxış ediblər. Keçirilən konsert proqramı alqışlarla qarşılanıb.

Adil Kərimli ilə Azadbek Nazarbekov arasında ayrıca görüş də keçirilib, əməkdaşlıq məsələləri müzakirə edilib. Mukimi adına Özbəkistan Dövlət Musiqili Teatrı Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində Məcid Şamxalovun "Qaynana" komediyası ilə çıxış edib. Dörd gün ərzində Bakının müxtəlif konsert salonları və teatrlarında müxtəlif görüşlər və konsert proqramları təşkil edilib.

Ötən il Azərbaycan Prezidenti İlham Əliyev 3 dəfə Özbəkistanda səfərdə olub. Bu da müxtəlif sahələrdə əməkdaşlığımızın inkişafına təkan verib.

Beləcə dövlətlərimiz və xalqlarımız arasında bütün sahələrdə dostluq və əməkdaşlıq durmadan inkişaf edir.

***Qulu KƏNGƏRLİ,***
***"Xalq qəzeti"nin xüsusi müxbiri***

**Daşkənd**

# Monqolustanda qədim izlər

**Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev Monqolustana səfəri çərçivəsində Çingiz xan Muzeyinin direktoru və Beynəlxalq Monqol Tədqiqatçıları Birliyinin baş katibi Sampildondvin Çuluun ilə görüşüb.**



Bu barədə qəzetimizə Beynəlxalq Türk Akademiyasından məlumat verilib. Bildirilib ki, Çingiz xan Muzeyində keçirilən görüşdə qurumlar arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi yolları və köçərilərin irsinin təbliği istiqamətində birgə layihələrin təşkili planları müzakirə olunub.

Şahin Mustafayevin Monqolustan Dövlət Universiteti və Türkiyənin Katib Çələbi Universitetinin türkologiya kafedrasının müdiri professor Ankhbayar Danuu ilə görüşündə isə Monqolustanda türkoloji tədqiqatların vəziyyəti müzakirə edilib.

***"Xalq qəzeti"***

# Türkiyəli professor elmi texnoparkda

**Elm və Təhsil Nazirliyinin Yüksək Texnologiyalar Parkında (YTP) İstanbul Aydın Universitetinin Magistratura Təhsili İnstitutunun direktoru, professor Ragıp Kutay Karaca ilə görüş keçirilib.**



YTP-dən redaksiyamıza bildirilib ki, görüşdə baş direktor Vasif Abbasov və tanınmış şəxslər iştirak ediblər. Öncə professor Karacaya texnoparkın əsas fəaliyyət istiqamətləri, istehsal olunan məhsullar haqqında ətraflı məlumat verilib. Bildirilib ki, innovativ texnoloji yeniliklərin ölkəmizdə inkişaf etdirilməsi, cəmiyyətdə belə təşəbbüslərin artırılması ilə müvafiq sahibkarlığın formalaşmasına dəstək verən YTP Azərbaycanda elmtutumlu, rəqabətqabiliyyətli yeni məhsulların istehsalını həyata keçirir, özəl sektor, biznes şəbəkələri ilə əməkdaşlıq edir.

Daha sonra qonaq YTP-nin ərazisi, texnoparkın rezidentlərinin istehsal sahələri ilə yaxından tanış olub. Alimə istehsal olunan məhsullar barədə ətraflı məlumat verilib.

Professor Karaca texnoparkın rezidenti Təcrübə-Sənaye Zavodunda dünya standartlarına tam cavab verən mühərrik yağlarının istehsalı prosesini də izləyib. O, bundan başqa, Strateji Elmi Analitik Sınaq Mərkəzində qaz və maye karbohidrogenlərin, neft və neft-kimya məhsullarının və istehlak mallarında toksik elementlərin sınaqları, eləcə də digər təcrübə işləri ilə tanış olub.

***"Xalq qəzeti"***

# Türk adı Tanrının adından gəlir

## *("Vətən" poemasından bir parça)*



***Türk adı Tanrının adından gəlir,***
***Nuru atəşindən, odundan gəlir,***
***Göylərin ən uca dərinliyindən***
***Yerlərin ən dərin qatından gəlir.***
***Türkü çətin duyar kin adamları,***
***Şeytan adamları, cin adamları...***

***Türk qəbilələri,***
***Türk tayfaları, --***
***Qədim şumerlərin qonşuluğunda,***
***Qafqazda, Altayda, Pamir dağında,***
***Baykal ətrafında, İrtış boyunda,***
***Xəzər dənizində, İtil çayında,***
***Ural laylasında, Sibir düzündə,***
***Ümman sinəsində,***
***Günəş gözündə,***
***Hunlarla qayıdıb ön Asiyaya,***
***Qayıdıb Qafqaza, Anadoluya,***
***Turların, sakların sıralarında,***
***İdil bulqarların aralarında,***
***Bir kökdən boy atıb pardaqlanırdı,***
***Bir boydan su içib budaqlanırdı.***
***Bir soydan gəlirdi hun da, suvar da,***
***Bərdədə, Şəmkirdə, Biləsuvarda,***
***Alban dağlarında, qədim Şirvanda***
***Qədimdən də qədim Azərbaycanda.***

***Beləcə gəlirdi Macar türkləri,***
***Beləcə gəlirdi Acar türkləri,***
***Beləcə gəlirdi Bulqar türkləri,***
***Beləcə gəlirdi Uyğur türkləri,***
***Beləcə gəlirdi Xəzər türkləri,***
***Beləcə gəlirdi Azər türkləri,***
***Beləcə gəlirdi Od Ər türkləri,***
***Beləcə gəlirdi Saf Ağ türkləri,***
***Beləcə gəlirdi Ar Sak türkləri,***
***Gəlirdi, beləcə Saf Qan türkləri,***
***Gəlirdi, beləcə Turan gəlirdi...***

***Tarixə həkk edib ilk Turanlığı***
***Beləcə yarandı Sibir xanlığı,***
***Şeybani xanlığı, Qıpçaq xanlığı,***
***Peçeneq xanlığı, Qazax xanlığı,***
***Uz, Tuna, Buxara, Qaşğar xanlığı,***
***İtil Bulqar, Kazan, Kırım xanlığı,***
***Həştərxan, Urmiya, Uyğur xanlığı,***
***Noqay, Qırğız, Türkmən, Tuva xanlığı,***
***Ərbil, Gəncə, Dərbənd, Quba xanlığı,***
***Naxçıvan, İrəvan, Bakı xanlığı,***
***Qarabağ, Lənkəran, Şəki xanlığı,***
***Beləcə yarandı Türk xanlıqları.***
***Türk xanimanları, xaqanlıqları...***

***Ramiz QUSARÇAYLI,***
***şair***

# Türkegey bölgəsinin tarixi məkanları



**Qədim tarixin ən qüdrətli imperatorları bu köhnə Egey ticarət yolları boyunca şəhərlər salıblar və əsrlərin ən mühüm tarixi dəyişiklikləri də məhz burada baş verib. Türkiyənin Türkegey bölgəsi müxtəlif turizm xidmətləri, mavi kruizlər və yelkənli səyahətləri, həmçinin dadlı-ləzzətli mətbəxi ilə diqqət çəkir.**

Bu bölgədə Troya, Efes, Berqama, Muğla tarixi və əsrarəngiz məkanlardır. Troya da daxil olmaqla, Çanaqqalada yerləşən Tevfikiye kəndi Türkegey bölgəsinin ən maraqlı yerlərindən biridir. Doqquz arxeoloji təbəqəyə və 3000 illik fasiləsiz tarixə malik olan Troya qədim şəhəri 1998-ci ildə UNESCO-nun Ümumdünya Mədəni İrs Siyahısına daxil edilib. Bu qədim yer həm də Avropa Şurasının Türkiyədən başlayan ilk və tək mədəni məkanı, Aeneas marşrutunun ilk dayanacağıdır. Avropanın ən prestijli muzey mükafatları ilə tanınan görkəmli Troya Muzeyi bölgədəki qazıntılardan əldə edilən artefaktlar və tapıntılar kolleksiyasına ev sahibliyi edir.

Assos Qədim Şəhəri Egey dənizinin füsunkar Behramkale kəndində, dənizə baxan terraslı enişli bir təpənin üstündə yerləşir. Şimali Egeyin kəşf edilməyi gözləyən başqa bir xəzinəsi olan bu qədim şəhər Assosun ən hündür nöqtəsində inşa edilən Afina Məbədinə ev sahibliyi edir. Assosdakı digər xarabalıqlara köhnə şəhərin agorası, gimnaziyası və teatrı daxildir. Assosun ən məşhur sakinlərindən biri Makedoniya sarayına Makedoniyalı İskəndəri öyrətmək üçün getməzdən əvvəl orada məşhur fəlsəfə məktəbini quran Aristoteldir.

Türkegeydəki qədim şəhərlərin müzakirəsinə hər il minlərlə yerli və xarici turisti cəlb edən Efes də daxildir. 2015-ci ildən UNESCO-nun Ümumdünya Mədəni İrs siyahısında olan və dövrünün ən böyük liman şəhərlərindən olub Efes, Hellenistik və Roma dövrlərində çiçəklənib. 30 min ziyarətçi tutumu ilə Türkiyənin ən böyük kitabxanası olan Celsus Kitabxanası, qədim teatr, Mazaeus və Mithridates darvazaları, Hadrian məbədi və qədim dünyanın yeddi möcüzəsindən biri olan Artemida məbədi, romalıların varlı ailələrinin necə yaşadığını göstərən "terras evlər" Efesin diqqətəlayiq yerləri arasındadır. Efesdə olarkən Məryəmin Evini, Müqəddəs Yəhyanın türbəsini və Yeddi Yatan Mağarası ilə tanış olmaq mümkündür.

***"Xalq qəzeti"***



# Turan ellərindən xəbərlər

**Planetimizdəki türk yurdları mürəkkəb, lakin maraq kəsb edən həyat yaşayırlar. Qardaş türk uluslarından bir sıra məlumatları diqqətinizə təqdim edirik.**

### Qazaxıstan

Sibir çayları axınının qismən Qazaxıstana yönəldilməsi problemi Qazaxıstan parlamentində müzakirə edimişdir. Millət vəkilləri Rusiya Federasiyasının Dövlət Dumasına müraciət edərək bu xüsusda Qazaxıstan--Rusiya dövlətlərarası komissiya yaratmağı təklif edəcəklər. Prezident Qasım-Comərd Tokayev beynəlxalq su-energetik konsorsiumu yaratmaq ideyasını irəli sürmüşdür. Asiya İnkişaf Bankı bu layihəyə 1,2 milyard ABŞ dolları ayırmaga hazırdır.

...Qazaxıstanda məktəb kitabxanalarının işçilərinə müəllim statusu verəcəklər. Bu barədə Əmək və Sosial Müdafiə naziri Tamara Duysenova məlumat vermişdir.

### Qırğızıstan

İssık-kul vilayətində Asman şəhərinin inşasına başlanılmışdır. Qırğızıstan Prezidenti Sadır Japarov tikintinin bünövrəsinə tarixçə-kapsul qoymuşdur. Mühüm tədbirə dövlət orqanlarının rəhbərləri, Joqorku Keneşin (Ali Məclisin) deputatları, KİV nümayəndələri dəvət edilmişlər.



Şəhərin formalaşması üçün 7--10 il nəzərdə tutulur. Şəhər əhalisi təqribən 500-700 min nəfər olacaq. Layihənin dəyəri 20 milyard dollar təşkil edir.

Qırğızıstan latın əlifbasına keçməyə hazırlaşır. Bunun üçün bir neçə variant təklif edilir. Dilçi alimlər əlifba layihəsində bir neçə hərfin çatışmadığını bildirmişlər. Bu barədə Dövlət dili üzrə milli komissiyanın sədri Qanıbek Osmonəliyev Joqorku Keneşin iclasında məlumat vermişdir.

### Tatarıstan

Kazan Tibb Universiteti Özbəkistan Tibb Akademiyası və Qazaxıstan universitetləri ilə əməkdaşlıq müqavilələri imzalamışdır. Özbəkistanın Tibb Akademiyası ilə müqaviləyə əsasən Daşkənddə Tatarıstan mütəxəssislərinin köməyi ilə mama-ginekoloqlar hazırlanacaq.

### Başqırdıstan

Ufa şəhəri meriyası paytaxtın tarixi mərkəzində bərpa-yenidənqurma işlərinin planını təsdiq etmişdir. Şəhərin digər hissəsində -- "Vətən" parkında milli üslubda evlər quraşdırılacaq.

Başqırdıstan Meşə Yanğınları Mərkəzinin rəisi Ayrat Yusupovun verdiyi məlumata görə, bu ilin son dərəcə quraq keçən yayında respublikada meşə yanğınlarının sayı ötən ilə nisbətən 3 dəfə artmışdır. Ən ciddi yanğın Üzən kəndi yaxınlığında baş vermişdir. Burada təbii fəlakət 2 min hektar ərazini əhatə etmişdir.

### Çuvaşıstan

Çuvaşıstanda "Volqaboyunda uğurlu ailə" müsabiqəsi təşkil edilmişdir. Müsabiqənin qalibləri Çeboksarı Filarmoniyasında elan edilərək mükafatlandırılmışlar. Qaliblər üçün paytaxtın görməli yerlərinə ekskursiyalar təşkil olunmuş, Çuvaşıstan Milli Muzeyi ziyarət edilmişdir.

"Uğurlu ailələr" Volqa çayına körpə balıqlar buraxmış, daha sonra "Çeboksarı" gəmisində "Volqa"nı ziyarətə çıxmışlar.

***Eldəniz İBRAHİMOV,***
***sənətşünas***

Sənət vurğunları

# "Arşın mal alan"dan başlanan kino sevgisi

## Müsahibimiz kinoşünas-jurnalist Aydın Kazımzadədir

**Mətbuatda Aydın Kazımzadə imzasına rast gələn, teleekranlarda onun həlim çöhrəsini görən hər kəs bilir ki, kinodan bəhs ediləcək. Düz 60 ildir ki, kinematoqrafiya sahəsində, necə deyərlər, külüng çalır. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsini bitirdiyi vaxtdan bu möcüzəli aləmə könül verib. 1985-ci ildə Moskvada Kinematoqrafiya İnstitutunda ixtisasartırma kursu keçərək bu sahədə daha da təkmilləşib.**



Milli kino tariximizin, əvvəllər iddia edildiyi kimi, 1916-cı ildən deyil, 1898-ci ildən başlanması faktını üzə çıxarıb sübuta yetirən məhz Aydın Kazımzadədir. Ulu öndər Heydər Əliyevin ayrıca sərəncamla avqustun 2-ni Kino İşçiləri Günü elan etməsində Aydın Kazımzadənin rolu danılmazdır. Azərbaycanda animasiya kinosunun da yaranma tarixinin 1933-cü ilə aid olması faktının aşkar edilib təsdiqlənməsi də onun adı ilə bağlıdır.

Aydın Kazımzadəni Azərbaycanda kino mətbuatının yaradıcısı hesab edənlər yanılmırlar. "Kino" qəzetinin və "Film" jurnalının baş redaktoru, Azərbaycan SSR Dövlət Kinematoqrafiya Komitəsi Məlumat-reklam bürosunun direktoru, Az.TV-də dublyaj şöbəsinin müdiri, "Azərkinovideo" İB-də reklam şöbəsinin müdiri, Azərbaycan Kino Ensiklopediyasının baş redaktor müavini, icraçı direktoru, Dövlət Film Fondunun direktor müavini, baş mütəxəssisi vəzifələrində çalışıb.

O, 1997-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kino tarixi fənnindən dərs deyir, dosentdir. Eyni zamanda, Dövlət Film Fondunun nəzdindəki Kino muzeyinin aparıcı mütəxəssisi kimi fəaliyyət göstərir. Yaşı ilə bağlı 2012-ci ildə işdən çıxana kimi Film Fondunda kino arxiv üzrə baş mütəxəssis olub.

Aydın müəllimin redaktoru olduğu əl boyda (A-4 formatında) "Kino" qəzeti bir vaxt əl-əl gəzirdi. 1974-cü ildə elə bu qəzetdə dərc edilən yazılarına görə o, ümumittifaq müsabiqəsinin qalibi olub. Ötən 60 ildə kinoya aid 200-dən artıq elmi və publisistik məqaləsi dövri mətbuatda çap edilib. Hamısı da bir-birindən maraqlı, cəlbedici yazılar olub. Aydın müəllim yerli televiziya kanallarında "Kino tariximizdən", "Kinoman" və "Kinosalnamə" verilişlərinin aparıcı və ssenari müəllifi kimi seyrçiləri ekrana yaxın əyləşdirə bilib.

Biz bu dəfə ekran qarşısında deyil, onun evində özü ilə üz-üzə əyləşib söhbət elədik. Ömür yoluna nəzər saldıq. Aydın müəllimin iş otağı zəngin bir muzeyi, foto-sənəd arxivini xatırladır. Özü isə ekrandakından da səmimi idi, cüzi hiss olunan Bakı ləhcəsində o qədər maraqlı faktlar söylədi ki, kinoya sonsuz sevgisinə, yaddaşına heyran qaldıq.

**– Aydın müəllim, həyatınızın erkən dövrünü necə xatırlayırsınız?**

– Mən 1940-cı il təvəllüdlüyəm. Atam müharibədə həlak olmuşdu, Anam və balaca qardaşımla tək qalmışdıq. O dövrdəki çörək tapmağın çətinliyi yadımda qalıb. "Şərikli çörək" filmində Vaqifi görəndə öz uşaqlığım yadıma düşür.

Müharibə qurtaran gün qapımız elə döyüldü ki, az qaldı ki şüşələrimiz sına. Qonşumuz dedi ki, dava qurtardı. Amma çətinliklər davam edirdi. Müharibədən bir il sonra evimizin damı uçdu. Nərimanov prospektindən bizə mənzil verilsə də, ora köçmədik. O dövrdə Bakı orada bitirdi. Çöllük yerlər idi, çaqqallar, canavarlar ulaşırdı. Ona görə nənəmizgilə – "Kubinka" deyilən Quba meydanına köçdük. Orada böyüműşəm. Anam aşpaz işləyirdi, nənəmsə xəstə idi. "Pekarnı"dan gələn çörək arabalarından tökülən qırıntılardan yeyirdik. "Samokat"ları, əyləncəyimiz digər oyuncaqları özümüz düzəldirdik. Çətin dövr olsa da, insanlarda inam, şövq var idi. Çünki qələbə qazanmışdıq.

**– Məktəb illərinizdən yadınızda qalan nə var?**

– Məktəbə 8 yaşımdan getmişəm. Müharibə həyatıma pis təsir eləmişdi. Bir dəfə müəllim bizə ifadə yazdırlanda belə bir hadisə oldu. Mən Hitlerin adını balaca hərflə yazdım. Müəllimim dedi ki, bilmirsən, xüsusi isimlər böyüklə yazılır? Mən onda atamın həlak olmasına yada salıb, Hitlerin xüsusi isim olmadığını dedim. Müəllim yaman hirsləndi, mübahisəmiz düşdü. Buna görə də axşam məktəbinə keçib, orada oxumalı oldum.

**– "Arşın mal alan" filmi 1945-ci ildə çəkilib...**

– Bəli, "Kubinka"da qaldığım vaxtlar idi. Məhəllədəkilər "Arşın mal alan"a baxmağa gedirdilər. Filmdə səslənən mahnıları ifa edib, oynayırdılar. Qapılara qara kağız gələn vaxtda bu filmi izləmək insanlar üçün təsəlli idi. Görüb eşidirdim ki, camaat bu filmə baxmaqdan yorulmur. Odur ki, 6 yaşımda "Kubinka" dan "Beşmərtəbə"yə qədər təkbaşına, piyada gedib yeni filmə baxdım. Orada ilk dəfə kinonu duymağa, sevməyə başladım. Onu da deyim ki, "Arşın mal alan" a qısqanc münasibət var idi. Hətta filmi qadağan etmək istəyirdilər. Bizi ittiham edirdilər ki, guya, inqilabdan öncəki həyatı təbliğ edirik. O üzdən də film kinotetarlarda reklamsız nümayiş olunurdu.

**– O dövrün başqa hansı filmlərini xatırlayırsınız?**

– O zaman hədddən artıq rus filmləri çəkilirdi. "Arşın mal alan"dan başqa, izlənəcək Azərbaycan filmi yox idi. Aleksandr Nevski haqda film hər yerdə göstərilirdi. Məqsəd müharibədən sonra insanları yüksək əhvali-ruhiyyədə saxlamaq idi. "Kuban kazakları", "Volqa, Volqa" , "Silva" kimi filmlər də sovetlərin təntənəsini təbliğ edirdi. Biz də o dövrün təsiriylə bu filmləri izləyib nümunə götürməyə çalışırdıq. "Tarzan", "Üç muşketyor" kimi filmlər xaricdən alınıb nümayiş olunurdu. Dördseriyalı "Tarzan" filmi insanlara xüsusən təsir etmişdi. O dövrdə bir maraqlı nüans da var idi. Biz Ermənistanda istehsal olunan "Zəngəzur" filminə baxanda əsl həqiqətləri bilmirdik. Film elə təbliğ olunurdu ki, daşnaklar sovet adamlarıdır. Dədə-baba torpaqlarını müdafiə edən azərbaycanlılar kölgədə qalmışdı. Azərbaycan xalqının Zəngəzurdakı faciələri, sözsüz ki, bu filmdə görsənmirdi.

**– Aydın müəllim, bir qədər də iş həyatınız, kino aləminə gəlişiniz barədə...**

– Anama kömək etməli olduğumdan 15 yaşından işləməyə başlamışam. Universitetə daxil olanda 30 manat təqaüd alırdım. Bu, məni qane eləmirdi. İş üçün müxtəlif yerlərə müraciət etsəm də, ilk üç ayı maaşsız işləmək şərti qoyuldu. Nəhayət, universitet qəzetində işə düzəldim. Mətbuatda ilk işim bu sayılır. Ondan sonra Kinoprokatda fotoqraf işlədim. Bu sənətə yiyələnməyim əlimdən çox tutub. Qurduğum gənc ailəmin də dolanacağını təmin edib. Reklam yazmaqla yanaşı, kino mətbuatının yaranmasını istəyirdim. Həmin qurumun nəzdindəki reklam bülletenini kino qəzetinə çevirə bildim. Bu işi artıq 1966-cı ildə həyata keçirdim. Qəzetdən sonra "Film" jurnalı da buraxa bildim.

**– Kino tariximizdə ilk döyüşçü obrazı Mehdi Hüseynzadə hesab edilir. "Uzaq sahillərdə" filmini Azərbaycan tamaşaçısı necə qarşıladı?**

– Bu filmin çəkilişində mən də iştirak eləmişəm. Axşam çəkilişlərində Nodar Şaşıqoğlu ilə söhbətlərimiz olmuşdu. Anjelikanın "Mənim axşam 9-un yarsında zabitlə görüşüm var" deməsi epizodunun çəkilişinin şahidi olmuşam. Həmin epizod Bakının Nizami küçəsində çəkilmişdi. Bu filmə də xalqın böyük marağı var idi. Çünki ekranda ilk dəfə milli qəhrəmanımızı görürdük. Sonradan öyrəndim ki, Mehdi Hüseynzadənin bəraət almasında ulu öndər Heydər Əliyevin böyük rolu olub. Onun haqqında roman, film, abidə təsadüfən meydana çıxmayıb. Heydər Əliyevin Mehdi Hüseynzadənin qəhrəmanlığı ilə tanış olması, ona dərin rəğbəti bu addımların atılmasına səbəb olmuşdu.

**– Sovet Azərbaycanı filmlərində hansı sətiraltı mesajlar var idi?**

– Əvvəla, onu deym ki, insan bir dövrə çatanda düşüncəsi daha da işıqlanır. Biz sovet dövründə yaşasaq da, həqiqətin harada olmasını artıq bilirdik. Tarixi həqiqətə ən əhəmiyyətli işarələr "Yeddi oğul istərəm" filmində edilmişdi. Zalımoğlunun "Dava eləmək biz müsəlmanlara qalıb?" sualı o dövr üçün ən vacib işarə – dissidentlik hesab edilə bilərdi. Burada artıq sinfi mübarizənin necə qanlı olmasının mesajı verilirdi. Və yaxud filmin sonunda Bəxtiyarın tüfəngi yerə sallayıb çıxıb getməsi xalqın sovet siyasətinin qurbanı olmasına etiraz idi. Gəray bəyin məğrur intiharı da sovet rejiminə üsyan idi. Bunu duymamaq mümkün deyil. "Ulduzlar sönmür", "Qatır Məmməd", "İşarəni dənizdən gözləyin" filmlərində bugünkü bayrağımız əksini tapırdısa da, biz ona fikir vermirdik. 1918-ci ildə qəbul edilən üçrəngli bayrağın tarixini çox az adam bilirdi.

**– Kinomuz keçid dövrünü necə qarşıladı?**

– Çox çətin. Əvvəla, ölkədə 1988-ci ildən xaosun başlanması hər şeyə təsir elədi. Kinonun da çətin günləri başlandı. Bir yandan erməni separatçılığı, bir yandan da ölkənin düzgün idarə olunmaması mədəniyyətimizə də ağır təsir elədi. Təsəvvür edin ki, Dövlət Kinematoqrafiya Komitəsinə məxsus əşyalar satışa çıxarılır, xaricə daşınırdı. Kinostudiyadakı xalçalar, qədim əşyalar, rekvizitlər talandı. "Aşkarfilm" şirkətinin lent aşkarlayan laboratiyasınınqurğuları oradan çıxarıldı. Sonra qapısına qıfıl vuruldu. Bizim kino xadimləri məcbur olub Gürcüstandan lent aşkarlayan axtarırdılar.

Çətin şərait olmasına baxmayaraq, bəzi iş adamları kinoya yardım eləmək istədilər. Bakıda hətta 30-a yaxın şirkət filmlərə yardım göstərirdi. Özəl dəstəklə ərsəyə gələn filmlərdən biri də "Yarasa" oldu. (rejissor Ayaz Salayev) Rasim Ocaqov "Ocaqfilm"i təsis etdi. Amma özəl dəstək təşəbbüslərinin olmasına baxmayaraq, filmlər pul gətirmədiyindən bu proses dayandı. Yalnız Heydər Əliyev hakimiyyətə qayıdandan sonra kinoya nizamlı dövlət dəstəyi verildi. Hər il kinostdiyaya milyonlarla manat vəsait ayrıldı.

**– Bugünkü kino prosesini necə qiymətləndirirsiniz?**

– Filmlərin çəkiliş mərkəzi kinostudiya olmalıdır. Zamanında belə idi. Kinostudiyada iş əlindən tərpənmək olmurdu. Son dövrlərdə Müşviq Hətəmovun orada direktor olması kinostudiyanın işini bir qədər yaxşılaşdırdı. Maaşlar artırıldı. O ki qaldı müstəqil kino prodakşnlara, onların işi ürəkaçan deyil. Çünki biz, misal üçün, prodakşn təsis etdik, pul lazımdır, axı. Vəsait olmasa, nə qədər böyük sənətkar olursan-ol, ortaya film qoya bilməzsən.

**– Aydın müəllim, kinoşünaslıq sahəsinə gəlmək istəyənlərə nə tövsiyə edərdiniz?**

– İncəsənət Universitetində bu sahədən dərs deyən zaman müşahidə etmişəm ki, müəllimlər yerində olmayanda tələbələr yaxşı təhsil almırlar. Kinoşünaslıq xüsusi bir tədris sahəsidir. İndi ayrıca kino tarixi ilə məşğul olan mütəxəssis yoxdur. Bəlkə də, elə şəxs ortaya çıxacaq. Tələbənin kinoşünas olmaq fikri varsa, öz üzərində çox işləməlidi. O istər kitab, istərsə də onlayn vəsaitlərdən də istifadə etməlidir. Çünki müəllimlərin bildikləri ilə yanaşı, bilmədikləri də var. Bir də ki, kinoşünaslığa gəlmək üçün yazı qabiliyyəti imtahanı olmalıdır. Kino bir dəryadır, ora girdinsə, gərək eninə-uzununa üzməyi bacarasan.

**– Maraqlı söhbətə, çağdaş kinomuza canyanğısına görə sağ olun!**

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

***Ceyhun MİRZƏLİ, sənətşünas***

---

Yaddaşlarda yaşayanlar

**Ötən əsrin səksəninci illərinin əvvəlləri idi. 26 Bakı Komissarı rayonunun rəhbərliyi bir neçə kənd rayonuna "Təşviqat briqadası" göndərirdi. Füzuli və İmişli rayonlarına göndərilən qrupun rəhbəri rayon Veteranlar Şurasının sədri – keçmiş pilot Məzahir Abbasov, məsləhətçi polkovnik Rizvan Zeynalov, konferansye – aparıcı isə mən idim.**

... Füzuli Rayon Partiya Komitəsinin birinci katibi Əhməd Əhmədzadə Məzahir müəllimə dedi ki, "Kommunist" qəzetinin fotomüxbiri də rayondadır. Məsləhətdirsə, sizin tədbirlərdən də şəkil çəksin. Razılaşdılar. Fotomüxbir gəldi və Məzahir müəllimlə rus dilində danışmağa başladı. Üstəlik, Məzahir müəllim ona Volodya – deyə müraciət edirdi. Amma mənim üçün qəribə olan onun rusca danışması və ya adının Volodya olması deyildi. Məni mat qoyan onun raykomun ikinci katibinə, Məzahir müəllimə və polkovnikə göstərişlər verməsi, şəkil çəkdirən zaman necə dayanmağın vacib olduğunu "öyrətməsi" idi.

İş elə gətirdi ki, aradan təxminən 25–26 il keçəndən sonra mən həmin fotomüxbir Vladimir İbadovla eyni kollektivdə işləməli oldum. Ancaq onun adı artıq Volodya yox, Cahangir idi.

Mən Cahangir müəllimlə, təxminən, on il siyasi tədbirlərdə iştirak etdim, 15 il isə eyni kollektivdə işlədim. Bir dəfə onu dostlarıma təqdim edərək fəxrlə dedim ki, Qızıl meydanda İosif Stalinin, Azərbaycan yazıçılarının qurultayında Səməd Vurğunun şəkillərini çəkmiş fotoqrafdır:

# Ustad fotomüxbir Cahangir İbadov



Cahangir müəllim dostlarımın yanında ca məni acıladı: "Bir də səndən fotoqraf ifadəsini eşitsəm, yazılarının xoşuma gəlməsinə baxmaram. Mən fotoqraf deyiləm, fotomüxbirəm".

Yeri gəlmişkən, onun bir siyasi tədbirdə nümayiş etdirdiyi cəsarət – bəlkə də, ərk və ya ərköyünlük – həmkarlarımızda gülüş, Prezidentin mühafizəçilərində narazılıq yaratsa da, ümummilli liderimiz tərəfindən xoş bir təbəssümlə qarşılandı. Belə ki, Cahangir müəllim ulu öndərə xitabən dedi ki, cənab Prezident, siz bir az sol tərəfə baxın ki, foto daha baxımlı alınsın. Heydər Əliyev isə səmimi bir təbəssümlə dedi, Volodya elə istəyirsə, elə dayanaq. AZƏRTAC-n fotomüxbiri, mərhum Yaşar Xəlilov danışırdı ki, nə sovet




Foto Cahangir İbadovundur

dönəmində belə ərköyünlük görmüşdüm, nə də müstəqillik dövründə.

Cahangir müəllimlə əlli il, bəlkə də çox, eyni kollektivdə çalışan həmkarlarımız da var idi. Ancaq onunla ən sıx əməkdaşlıq etmək mənə nəsib oldu. Təkcə siyasi tədbirlərdə və ya səfərlərdə deyil, adi sosial-məişət məzmunlu materialları işləyərkən də bir-birimizi tamamlayırdıq.

Yadımdadır. Horadizin bərpasından sonra məcburi köçkünlərin oraya qaytarılması tədbirindən bir səhifəlik qəzet materialı hazırlamışdıq. Biz tədbirə gedəndə keçmiş baş redaktorumuz Mahal İsmayıloğlu demişdi ki, yaxşı şəkillər çəkin, beş-altı foto verə bilək. Getdik, qayıtdıq və Mahal müəllim hazır fotolara baxabaxa, "bunu da verin", "bunu da verin", sözlərini neçə dəfə təkrarladısa bilmirəm, amma mənə dediyi "Sən mətnin yarısını sonrakı nömrəyə saxla" sözləri çox yaxşı xatırlayıram. Nəticədə katiblik bir səhifədə 13 foto verdi.

Mən Horadizdə ona ağlaya-ağlaya samovar qaynadan gəlini göstərdim, çəkdi, evin pilləkənlərini öpə-öpə sürünən yaşlı qarını da göstərdim, çəkdi, elektrik dirəyinin başındakı elektrikin iri bir kəlbətini ağzında saxladığını da göstərdim, çəkdi və sonda dedi ki, Mirzəbəyli, ya mən sənin yaşında cavanam, ya da sən mənim yaşımda qocasan: "Yoxsa necə ola bilər ki, bir-birimizin düşüncəsini bu qədər dəqiqliklə tamamlaya bilək?"

Bir dəfə Beyləqandan, əsgərlərlə görüşdən qayıdırdıq. Payızın axırları idi. Yarpaqları tamamilə tökülmüş ağaclarda yüzlərlə zağça yuvası var idi. Cahangir müəllimdən xahiş elədim ki, həmin yuvaların fotosunu çəksin. Çəkdi. Mən həmin lövhəyə baxaraq, qaçqın-köçkünlərimizin halını xatırladım və bir bəndlik şeir yazdım.

**Bizim nə dərdimiz, deyib-gülürük,**
**Dərd bizsiz göynəyən yuvalarındı.**
**Yuva sahibsizdi, sahib didərgin –**
**Nə soyuq görünür yuvalar indi?**

Mahal İsmayıloğlu həmin fotonu və şeiri qəzetin birinci səhifəsində – manşet yerində verdi. Ertəsi günü Prezident Aparatının ( o zaman belə adlanırdı) yüksək vəzifəli rəsmilərindən biri Cahangir müəllimi məhz həmin fotoya görə təbrik edəndə mən ustadın daha bir böyüklüyünün şahidi oldum. Fotoaparatı tutduğu əli ilə – sanki, fotoaparatla məni göstərərək dedi: İdeya müəllifi müxbir oldu.

Doxsanıncı illərdə paytaxtın hər yerini başına götürmüş küçə ticarətini ("Hər şairin öz bazarı"), binaların damında icazəsiz yeni evlərin tikilməsini tənqid edən ("Dam üstdədir damımız") kimi onlarca yazı onun hədəfi dəqiq vuran fotoları ilə uğur qazanmışdı. Yadımdadır, o zamankı radikal müxalifətin haqsız və icazəsiz aksiyalarından birində özünü qoçu kimi göstərməyə çalışan kimsə bizim – iqtidar jurnalistlərinin üstünə hücum çəkəndə Cahangir müəllim məni döyülməkdən qorumaq üçün özünü qabağa vermişdi. O, fotoaparatı mənə verib, üsyankara dedi: "Gəl, artıq mənim tərs damarım tutdu. Gəl səni tapdalayım". Bu fakt Cahangir müəllimin 70 yaşının ərəfəsində baş vermişdi.

O ki qaldı, Cahangir müəllimin adının əvvəllər Volodya olmasına, bu məsələyə ən yaxşı aydınlığı həmkarımız Qüdrət Piriyev gətirmişdir. Yeri gəlmişkən, mən Cahangir İbadov haqqında yazılmış onlarca yazı oxumuşam. İnsaf xatirinə deməliyəm ki, həmin yazılar arasında ən yaxşısı Qüdrət Piriyevin ustadın 75 illiyi münasibətilə qələmə aldığı yubiley məqaləsi idi. Elə bu sətirləri də həmin məqalənin bir abzasını təqdim etməklə yekunlaşdırıram:

"Əslimiz Laçın rayonunun Alpoud kəndindəndir. Atam gənclik illərində Sultan bəyin dəstəsində qaniçən Andranikə qarşı vuruşub, Şuşanın müdafiəsində, Daşaltı uğrunda döyüşlərdə iştirak edib. Hətta yaralanıb da. Şura hökuməti qurulandan sonra o, Laçında komsomol katibi işləyib. Daha sonra partiya-sovet fəaliyyətinə müxtəlif vəzifələrdə çalışıb. Otuzuncu illərin əvvəllərində ali partiya təhsili almaq üçün Moskvaya göndərilib. Moskva Ali Partiya Məktəbinin ilk azərbaycanlı məzunlarından olub. Təhsil illərində həmin məktəbdə kitabxanaçı işləyən və əslən moskvalı olan Kseniya Vasilyevna ilə ailə qurub. İlk övladları kimi mənim Moskvada doğulmağım da bununla bağlıdır. Valideynlərim adımı Cahangir qoyublar. Mənə doğum haqqında şəhadətnamə yazdırarkən onlar problemlə qarşılaşıblar. "Cahangir" adının yazılışının və tələffüzünün çətinliyini bəhanə gətirib sözün mənasını soruşublar. Atam rusca qarşılığının "Vladimir" olduğunu deyib. "Elə isə, niyə özünüzü dağa-daşa salırsınız, – deyiblər. – "Vladimir" yazaq, qurtarsın getsin, rəhbərin adından yaxşı nə ola bilər?" Bu sözdən sonra valideynlərim dillənə bilməyiblər..."

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

BEYNƏLXALQ HƏYAT

# Ukrayna taxılına yeni yol açılır

**Rumıniya Ukrayna taxılının tranzitini ayda 2 milyon tondan 4 milyon tona çatdırmağı planlaşdırır. Bunu Qalati limanında ABŞ, Avropa İttifaqı, Rumıniya, Ukrayna və Moldova rəsmilərinin iştirakı ilə keçirilən danışıqlardan sonra Rumıniyanın nəqliyyat naziri Sorin Qrindeanu deyib. İclasın məqsədi Ukrayna taxılının ixracı üçün alternativ yolların müəyyən edilməsidir. Məsələ xüsusilə Rusiyanın taxıl sazişindən çıxmasından sonra aktuallaşıb.**



Avqustun 11-də Moldova və Ukraynadan demək olar ki, eyni məsafədə yerləşən Rumıniyanın Dunay sahilindəki Qalati liman şəhərində yüksək səviyyəli rəsmilərin iştirakı ilə danışıqlar aparılıb. ABŞ Dövlət Departamentinin sanksiyalar üzrə koordinasiya ofisinin rəhbəri Cim O`Brayen, Avropa Komissiyasının mobillik və nəqliyyat direktorluğunun rəhbəri Maqda Kopçinskaya, Rumıniya və Ukraynanın nəqliyyat nazirləri Sorin Qrindeanu və Aleksandr Kubrakov, həmçinin Moldovanın kənd təsərrüfatı naziri Vladimir Bolea Ukrayna taxılının tranzitinin artırılması imkanlarını müzakirə etmək üçün bir araya gəliblər.

Xatırladaq ki, iki gün əvvəl ABŞ-ın Buxarestdəki səfirliyi danışıqlar barədə verdiyi açıqlamada görüşü “həlledici” adlandırmışdı. “Rusiyanın Ukrayna liman infrastrukturunu və taxıl anbarlarını amansızcasına məhv etməsinə baxmayaraq, biz qlobal tələbatı ödəmək üçün Ukrayna taxıl ixracının davamlılığını təmin etməyə sadiqik”, - Rumıniya mətbuatı diplomatik missiyadan sitat gətirmişdi. Görüşdən sonra iştirakçılar bəyan ediblər ki, ABŞ logistikanı yaxşılaşdırmaq, yüklərin transsərhəd daşınmasını asanlaşdırmaq və ümumilikdə Rumıniya və Moldovanın tranzit imkanlarını genişləndirmək məqsədilə Ukraynanın qonşu dövlətlərə maliyyə yardımı göstərməyə hazır olduğunu təsdiqləyib.

Rumıniyanın nəqliyyat naziri Qrindeanu görüşdən dərhal sonra sosial platformasında yazıb ki, bu tədbirlər ABŞ-ın alternativ ixrac marşrutlarının genişləndirilməsində dəstəyini, sərhəd-keçid məntəqələrinin, dəmir yolu və avtomobil nəqliyyatı üçün kritik infrastrukturun modernləşdirilməsini və Dunayda ixrac gücünün inkişafına dəstəyi əhatə edəcək. Mətbuat konfransında isə Sorin Qrindeanu əlavə edib ki, görüşdə müzakirə olunan tədbirlərin qəbulu Ukrayna taxılının tranzitinin həcmini ayda hazırkı 2 milyon tondan 4 milyon tona çatdıracaq. Nazir, həmçinin bildirib ki, bu məqsədə nail olmaq üçün Sulina kanalının (Dunay və Qara dənizi birləşdirən) buraxılış qabiliyyətinin optimallaşdırılması vacibdir.

BMT-nin məlumatına görə, Rusiyanın iyul ayında çıxdığı taxıl sazişi təxminən bir il ərzində Ukraynanın Qara dəniz limanlarından 32 milyon tondan çox ərzaq məhsulunun ixracına imkan yaradıb. Ukraynanın nəqliyyat naziri Aleksandr Kubrakov iclasın yekunu ilə bağlı şərhində Sulina kanalının rolunu və ümumiyyətlə, Dunayda naviqasiyanın inkişaf etdirilməsi zərurətini qeyd edib. Nazir vurğulayıb ki, digər prioritet Dunayda gəmiçiliyin inkişafıdır. Gəmi kanallarının keçidinin sürətləndirilməsi, Sulina kanalının keçid qabiliyyətinin artırılması və Rumıniyanın Konstansa limanı yaxınlığında gəmilərin reyd keçirməsi üçün əlavə yerlərin təşkili əsas iş sahələridir. Sonra o əlavə edib ki, bütün bunlar investisiya tələb edir. Ukraynalı nazir, həmçinin bildirib ki, Rumıniya və Moldova ilə dəmir yolu daşımaları məsələsində fəal iş aparılır: “Bizim bütün addımlarımız bir məqsədə çatmağa yönəlib - Ukrayna ixracatçıları üçün mümkün qədər çox imkanlar təmin etmək. Bundan həm müdafiə qabiliyyəti artacaq, həm də iqtisadiyyat faydalanacaq”.

Moldova kənd təsərrüfatı naziri Vladimir Bolya ölkəsinin Ukraynadan Aİ-yə kənd təsərrüfatı məhsullarının tranzitini təmin etdiyini bildirib. Onun sözlərinə görə, Kişinyov nəqliyyat imkanlarının artırılmasında maraqlıdır: “Problem ondadır ki, bizdə aşağı keyfiyyətli dəmir yolu və dəniz infrastrukturu var, bu da kənd təsərrüfatı məhsullarının daşınması imkanlarını azaldır”. O, əlavə sərmayə qoyuluşuna da çağırıb. Moldova dəmir yollarının rəhbəri Oleq Tofilat isə bildirib ki, respublika 2022-ci ildən regionun logistika problemlərinin həllində fəal iştirak edir. Moldovalı ekspertlərin sözlərinə görə, Moldova dəmir yolu Rumıniya dəmir yolu kimi hələ də əlavə modernləşdirməyə ehtiyac duyur. Bununla yanaşı, mütəxəssislər vurğulayırlar ki, Moldova və Rumıniya artıq Ukrayna taxılının beynəlxalq bazarlara ixracı üçün yaxşı qurulmuş marşrutdur.

Eyni zamanda, ekspertlər xatırladırlar ki, Qara dəniz taxıl təşəbbüsü işləyərkən Ukrayna taxılının ixracı üçün əsas istiqamət olub. Buna görə də, mütəxəssislər quru və çay tranzitinin artırılması imkanlarını ehtiyatla şərh edirlər. Analitiklər belə bir sual verirlər: Moldova və Rumıniyanın 25 milyon ton Ukrayna taxılını beynəlxalq bazarlara daşımaq gücü varmı? Bəzi ekspertlər bildirirlər ki, ötən il hər iki ölkə 10 milyon tona yaxın taxıl daşıya bilib. Bu arada genişləndirmə işlərinə ötən il başlanılan Konstansa limanında anbar tutumları artırılıb, Moldova və Rumıniyada dəmir yolları təmir edilib. Bununla belə, mütəxəssislər deyirlər ki, daha çox taxıl ixracı üçün infrastruktur inkişaf etdirilməlidir. Birləşmiş Ştatlar və Avropa İttifaqı Ukrayna taxılına yeni yol açmaq üçün pul xərcləməyə hazır olduqlarını bildirirlər.

*Səbuhi MƏMMƏDOV,*
*“Xalq qəzeti”*

# “Amerika müharibələri maliyyələşdirməkdən yorulub”

## 12 konqresmen Ukraynaya yeni hərbi yardıma etiraz edib

**Respublikaçı konqresmenlər ABŞ Prezidenti Co Baydendən Ukraynaya 24 milyard dollarlıq yardım üçün yeni maliyyə tələbini geri götürməsini tələb ediblər. Bu barədə Nümayəndələr Palatasının üzvü Varren Davidson bildirib. “Fox News” siyasətçilərdən sitat gətirib: “Biz Ukrayna üçün 24 milyard dollar da daxil olmaqla, 40 milyard dollarlıq əlavə vəsaitin ayrılması ilə bağlı son müraciətinizlə kəskin şəkildə razılaşmadığımızı bildiririk”.**



Baydenin təşəbbüsünə 12 konqresmen qarşı çıxıb. Məktubda deyilir ki, bu sorğu "administrasiyanızın nəzarətsiz kəsir xərclərini gücləndirir və ikipartiyalı “borc tavanı” razılaşmasını pozur: “Amerikalılar sonsuz müharibələri maliyyələşdirməkdən yorulub və Vaşinqtonda nəinki maliyyə ehtiyatlığını bərpa etməyə kömək edəcək, həm də Amerikanı və Amerika vətəndaşlarını birinci yerə qoyacaq siyasət istəyirlər”. ABŞ-ın Ukraynadakı məqsədləri aydınlaşana qədər vəsait tələbinin geri götürülməsi təklif edilir.

Pentaqonun məlumatına görə, Rusiyanın Ukraynada xüsusi əməliyyatı başlayandan bəri, Vaşinqton Kiyevə 43 milyard dollardan çox hərbi yardım ayırıb. ABŞ səlahiyyətliləri əvvəlki paketi iyulun sonunda açıqlamışdı. Onda maliyyələşmənin həcmi 400 milyon dollar olub.

“The Washington Post”un yazdığına görə, Kiyev ötən il fevralın 24-dən ABŞ-dan təxminən 66,2 milyard dollar hərbi, maliyyə və humanitar yardım alıb. Bu da Vaşinqtonun İkinci Dünya müharibəsindən sonra başqa bir ölkəyə verdiyi ən böyük dəstəkdir.

Nümayəndələr Palatasının digər üzvü Qreq Stubi (Florida ştatından olan respublikaçı) isə Konqresdə ABŞ Prezidenti Co Baydenin impiçmenti ilə bağlı məsələ qaldırıb. Onu prezident kürsüsünü nüfuzdan salmaqda və qanunun aliliyini pozmaqda ittiham edib. Bu barədə cümə günü konqresmenin saytında dərc olunmuş bəyanatda deyilir. “Co Baydenə impiçment elan etməyin vaxtıdır. O, öz administrasiyasının dürüstlüyünə xələl gətirib, prezidentliyi nüfuzdan salıb, prezident kimi ona göstərilən etimada xəyanət edib, Amerika vətəndaşlarının zərərinə qanunun aliliyini və ədaləti pozaraq hərəkət edib. Bunun sübutu hər gün artır”.

Konqresmen daha sonra deyib ki, Baydenin cinayətkar ailəsi rüşvət, təhdid və fırıldaqçılıq yolu ilə onun dövlət vəzifələrindən istifadə edərək qazanc əldə edirlər. “Biz Co Baydenin Ağ evdə oturub ölkəmizi satmağa davam etməsinə icazə verə bilmərik”,- deyə qanunverici bildirib.

Baydenin impiçmenti ilə bağlı məqalələr ilk dəfədir ki, ABŞ Konqresinə təqdim edilmir. Qanunvericilər Marjorie Teylor Qrin (Gorciya ştatından respublikaçı) və Loren Bobert (Koloradodan respublikaçı) bu təşəbbüslə əvvəllər dəfələrlə çıxış ediblər. Nümayəndələr Palatasının spikeri Kevin Makkarti də impiçment prosesinə başlamaq niyyətini açıqlayıb. O hesab edir ki, bu, Bayden və onun ailəsinin korrupsiya sxemlərində iştirakı ilə bağlı həqiqəti öyrənməyin yeganə yoludur. Lakin bu niyyətlərin həyata keçirilməsi üçün hələ də heç bir addım atılmayıb.

Rusiya isə Ukrayna ordusunun maliyyələşdirilməsinə qarşıdır və Belarusu Ukraynadakı müharibəyə cəlb etməyə çalışır. Hərbi ekspert Sin Bell Britaniyanın “Sky nyus” nəşrində dərc olunmuş təhlilində bildirib ki, Belarus Prezidenti Aleksandr Lukaşenko NATO ilə gərginliyi artırır: “Vaqner” xüsusi hərbi təşkilatının ölkəsində yerləşməsi Lukaşenkonu daha da cəsarətləndirib. Lakin bu, Polşa ilə gərginliyin yaranması ilə nəticələndi. Belarus helikopterlərinin də sərhəd pozuntularında iştirak etdiyi barədə məlumatlar var. Bu hallar Belarusun NATO qonşuları ilə gərginliyini artıra bilər”.

*Pünhan ƏFƏNDİYEV,*
*“Xalq qəzeti”*

**Azərbaycan dövlətinin siyasətində əhalinin sosial rifahı prioritet təşkil edir. Prezident İlham Əliyevin bölgələrə hər səfəri yeni sosial obyektlərin və müəssisələrin açılışları ilə yadda qalır. Dövlət başçısının bir neçə gün əvvəl ölkəmizin Qərb bölgəsinə səfəri də mühüm tarixi hadisələrlə diqqət mərkəzində oldu. Əminik ki, səfər zamanı Prezident tərəfindən açılışı edilən sosial obyektlərin hər biri fəaliyyəti ilə bölgə sakinlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasına xidmət edəcək.**

Bu mənada Samux Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışı, xəstəxanada yaradılan şəraitlə bağlı dövlət başçısına verilən məlumat tədbiri izləyən hər kəsin diqqətini çəkdi. Bu gözəl tibb ocağının inşasına 2019-cu ildə başlanılıb. Üçmərtəbəli, 90 çarpayılıq xəstəxanada əhaliyə ən müasir tələblər səviyyəsində səhiyyə xidməti göstərilməsi üçün lazımi şərait yaradılıb. Bura müraciət edənlər Yaponiya, Koreya, İtaliya və Türkiyə istehsallı modern avadanlıqla dəqiq müayinə olunacaqlar.

# Bölgələrdə əhalinin sosial müdafiəsi gücləndirilir



Tibb müəssisəsində bütün zəruri xidmətlər üzrə şöbələr fəaliyyət göstərəcək. Ərazidə əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər korpusu və digər yardımçı binalar da inşa olunub.

Televiziya ilə izlədiyimiz kadrlardan da görünürdü ki, əhalinin müasir tibbi xidmətlə əhatə edilməsi, müayinə və müalicələrin etibarlı olması, gələcəyimiz olan uşaqların sağlam böyüməsi üçün ardıcıl surətdə tədbirlər həyata keçirilir. Sosial layihələrin icrası dövlət başçısının daimi diqqətində, ciddi nəzarətindədir.

Dövlət başçımız həmin gün Bərdədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Qarabağ Regional Dayanıqlı və Operativ Sosial Təminat (DOST) və peşə hazırlığı mərkəzlərinin açılışında da iştirak edib. Bu günlərdə 5 yaşı qeyd olunan agentliyin DOST mərkəzləri artıq, sözün əsl mənasında, vətəndaşlarınn dostuna çevrilib. Onların əsas qayəsi vətəndaş məmnunluğuna nail olmaqdır. Mövcud DOST mərkəzlərində indiyədək 1 milyon yarımdan çox insana məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində “bir pəncərə” prinsipi ilə 15 istiqamət üzrə 159 növ xidmət göstərilib: məmnunluq dərəcəsi 98,2 faizdir.

Bərdədə DOST Mərkəzinin açılışı zamanı Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin verdiyi məlumata görə, qarşıdakı 3 ildə belə xidmət sahələrinin sayının 17-yə, filialların isə 55-ə çatdırılması planlaşdırılır.

Yeni açılan mərkəz dördmərtəbəli, yaraşıqlı binadan ibarətdir. Burada 123 işçi çalışacaq. Eyni zamanda, “Könüllü DOST” proqramı üzrə 50 gənc fəaliyyət göstərəcək. Mərkəz 770 mindən çox əhalisi olan 9 rayona, həmin ərazilərdən sosial müdafiəyə ehtiyacı olan 170 min nəfərə xidmət edəcək. Gün ərzində orta hesabla 650–700 vətəndaşın rahat qəbulu təmin ediləcək.

Ölkənin regionlarında yaradılan peşə hazırlığı mərkəzləri də sosial rufaha xidmət edən ünvanlardır. Bildiyimiz kimi, peşə hazırlığı özlüyündə işaxtaran və işsiz şəxslərin əmək bazarının tələbatına uyğun olaraq təhsil müəssisələrində ixtisasa və ya yeni peşəyə yiyələnmək üçün hazırlığını ehtiva edir. Özü də bu zaman “Məşğulluq haqqında” Qanunun tələbləri nəzərə alınır, təlimlər isə təhsillə bağlı qanunlarına uyğun təşkil olunur. Bu baxımdan Qarabağ Regional Peşə Hazırlığı Mərkəzinin işə başlaması əmək bazarının tam təminatını reallaşdıracaq. Burada emalatxanalar, siniflər və instruksiya otağı, Karyera Planlaması Mərkəzi mövcuddur. Təlimlər 48 peşə üzrə aparılacaq. Mərkəzdə 20 nəfərlik heyət işləyəcək. Bir dəfədə 300, ildə isə 1200 nəfərin hazırlıq keçməsi nəzərdə tutulub.

Qeyd edək ki, hazırda Bakı, Göyçay və Gəncədə də peşə hazırlığı mərkəzləri fəaliyyət göstərir. Ümumilikdə, mərkəzlərdə 175 peşə və ixtisas üzrə tədris aparılır, 100-dən çox əlavə təhsil müəssisəsi ilə əməkdaşlıq həyata keçirilir. DOST konsepsiyasına uyğun olaraq, yeni mərkəzlərin yaradılması üzrə növbə Quba, Cəbrayıl, Sabirabad, Şəki, Masallı, Ucar və Şamaxınındır.



Açılış mərasimində bildirildiyinə görə, son beş ildə ölkəmizdə 1 milyondan çox şəxsə məşğulluq xidməti göstərilib, 425 min nəfər işlə təmin olunub. Həmçinin 68 min nəfər özünüməşğulluq xidməti, 20 min nəfər işsizlikdən sığorta ödənişi ilə təmin edilib, 18 min nəfər peşə hazırlığına, 473 min nəfər isə peşəyönümlü xidmətlərə cəlb olunub. Postmüharibə dövründə 19 min şəhid ailəsinin üzvü və müharibə iştirakçısı müvafiq xidmətlərdən gen-bol yararlanıb.

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən məşğulluq tədbirləri də təqdirəlayiqdir: artıq 129 min şəxsin təhlili aparılıb. Laçın, Füzuli rayonları, Ağalı və Talış kəndləri üzrə 2 min 257 şəxslə iş aparılır, 200-dək işəgötürənlə əməkdaşlıq münasibətləri qurulub. Şuşaya köçürüləcək 19 mindən çox şəxs öyrənilib, 56 nəfərin məşğulluğu təmin edilib.

Bəli, bütün ölkədə olduğu kimi, işğaldan azad edilən rayonlarımıza qayıdacaq sakinlərin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə də geniş tədbirlər planı mərhələli şəkildə reallaşdırılır.

*Zərifə BƏŞİRQIZI,*
*“Xalq qəzeti”*

SON SƏHİFƏ
Xalqın qəzeti!
# Xalq qəzeti
№ 171 (30287) 13 avqust 2023-cü il, bazar
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Nicat Abasov 1/8 finala qələbə ilə başlayıb

**Bakıda keçirilən şahmat üzrə dünya kubokunda 1/8 final mərhələsinin ilk oyunları keçirilib.**



Azərbaycan şahmatçısı Nicat Abasov ağ fiqurlarla Birləşmiş Ərəb Əmirliklərinin təmsilçisi Saleh Salemlə qarşılaşıb. Bərabər vəziyyətdə keçən oyunun sonuna doğru Nicat rəqib qarşısında ardıcıl olaraq çətinliklər yaradıb. Rəqib yaranan təzyiqin qarşısında səhv gediş edib. Beş saat davam edən partiyanın yekununda Saleh Salem 54-cü gedişdə təslim olub.

Şahmatçılar arasında cavab görüşü sabah keçiriləcək.

## Badmintonçularımız gümüş və bürünc medal qazanıblar

**Azərbaycanın badminton komandası Tacikistanda təşkil edilən beynəlxalq turnirdə 3 medal qazanıb.**




Azərbaycan Badminton Federasiyasının mətbuat xidmətindən "Xalq qəzeti"nə bildiriblər ki, Era Maftuha-Həcər Nuriyeva tandemi qadın badmintonçuların qoşa yarışında ikinci yeri tutub.

Edi Reski Dviçayo və Keişa Fatimə Zəhra isə Düşənbə şəhərində keçirilən "International" seriyalı beynəlxalq turnirdə bürünc medala sahib olublar.

## II MDB Oyunlarında 50 medal

**Belarusun paytaxtı Minskdə keçirilən II MDB Oyunlarında Azərbaycan komandasının uğurlu çıxışı davam edir.**




Dünən boksçularımızdan Məhəmmədəli Qasımzadə (60 kq), Ziya Həsənov (71 kq) və Fərhad Şeydayev (75 kq) gümüş medal qazanıblar.

Muaytay üzrə yarışlarda isə Emili Rzayeva (67 kq), Nihat Şoranov (51 kq), Fuad Quliyev (54 kq), İsgəndər İsgəndərov (57 kq), Murad Səfərəliyev (71 kq) bürünc medala sahib olublar.

Karate yarışlarında isə Ramil Baxşəliyev (60 kq) qızıl, Fidan Teymurova (50 kq) gümüş, Zəhra Qurbanzadə, İnci Əzizova (50 kq), Mədinə Sadiqova (55 kq) və Hüseyn Məmmədli (67 kq) bürünc medala layiq görülüblər.

Bununla da, komandamız 8-i qızıl, 13-ü gümüş, 29-u bürünc olmaqla 50 medal qazanıb.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



## "Nokia"nın böyük dinamikli yeni modeli

***"Nokia" şirkəti öz məhsullarının təkmilləşdirilməsi istiqamətində uğurlu addımlar atır. Növbəti yenilik isə "Nokia 130 Music" smartfonudur.***

Smartfonun korpus hissəsində kamera əvəzinə, nəhəng dinamik yerləşdirilib. Bu isə telefonun əsas fərqliliyidir. Bu dinamik cihazın arxasındakı kameranın yerində yerləşir. Eyni zamanda, siz "Nokia 130 Music"-i əlinizdə tutaraq və ondan dinamik kimi istifadə edərək mahnıları dinləyə bilərsiniz.

Dinamikdən əlavə, cihazda fənər və micro SD yaddaş kartları üçün slot da var. Qadcetin yaddaşının bütün musiqi kitabxanasını saxlamaq üçün 32 GB-a qədər yaddaşı var. Smartfon simli və simsiz FM radionu dəstəkləyir, Micro USB 1.1 portu və qulaqlıqlar üçün standart 3,5 mm audio yuvası qoyulub.

Telefonun akkumulyatorunun tutumu 1450 milliamper/saatdır. İstehsalçı telefonun gözləmə rejimində 30 gün, fasiləsiz söhbət zamanı isə 20 saat işləyəcəyini bildirib.

*Mahmud QƏRİBOV, "Xalq qəzeti"*

## Döş xərçəngini aşkarlayan cihaz

***Dünya şöhrətli türkiyəli alim Canan Dağdeviren döş xərçəngi diaqnozunda irəliləyiş əldə edib. Türkiyə mətbuatının yazdığına görə, Dağdeviren xərçəngi qabaqcadan aşkarlayan ultrasəs cihazı ixtira edib. Büstqaltere taxıla bilən cihaz qadınlara mümkün xərçəng hallarını erkən aşkarlamağa imkan verəcək.***



6 ildir üzərində işlənilən cihaz insanlar üzərində sınaqdan keçirilib və ABŞ-da patent alıb. Həkimin sözlərinə görə, bu cihaz hər il 11 milyon qadının həyatını müsbətə doğru dəyişə bilər. Özünün də döş xərçənginə tutulma riskinin yüksək olduğunu deyən Dağdeviren cihazı bütün qadınlara ərmağan etdiyini deyib.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, döş xərçəngi ən çox yayılmış xərçəng növüdür və təkcə 2020-ci ildə 2,3 milyon qadına süd vəzi xərçəngi diaqnozu qoyulub, 685 min qadın dünyasını dəyişib.

*F. SALMANOVA, "Xalq qəzeti"*

Maraq dünyası

## Ən çox, ən az...

• Artıq çəkili insanlar ən çox Sakit okeandakı Nauruda yaşayır. Bu ölkə əhalisinin təxminən 95 faizi artıq çəkidən əziyyət çəkir.

• Dünyadakı bütün göllərin 60 faizi Kanadada yerləşir. Onların sayı 3 milyondan çoxdur və ölkə ərazisinin 9 faizini təşkil edir. Kanada həm də ali təhsilli insanların ümumi əhaliyə nisbətinə görə dünyanın ən savadlı ölkəsidir.

• Liviya dünyanın ən quraq ölkəsidir, ərazisinin 99 faizi səhradır.

• Ən az meşə Haitidədir. Deməli olar ki, burada bütün ağaclar kəsilib.

• Dünyanın ən parçalanmış ölkəsi Somalidir. Onun ərazisində onlarla tanınmamış dövlət var.

• Papua–Yeni Qvineyada çoxlu xalq yaşayır. Onlar 820-dən çox dildə danışırlar. Bu, dünyadakı bütün dillərin 12 faizindən çoxdur.



• Dünyanın ən təmiz ölkəsi İslandiyadır. O həm də ən dinc və ən mehriban ölkədir. Buna əmin olmaq üçün heç olmasa bir dəfə buranı ziyarət etmək kifayətdir.

* Turistlər arasında aparılan sorğuya görə əcnəbilər üçün ən xoşagəlməz ölkə isə Boliviyadır. Bu siyahıda ikinci və üçüncü yerləri Venesuela və Rusiya tutur.

*P. ƏFƏNDİ, "Xalq qəzeti"*

## Marsda həyat izləri tapılıb

**Alimlər Marsda fəaliyyət göstərən "Curiosity" aparatı ilə uzaq keçmişdə planetdə mövsümi sel daşqınlarının izlərini aşkar ediblər. Bu hadisə bioloji həyat növünün formalaşmasına və münbit şəraitin yaranmasına səbəb olan amil kimi qiymətləndirilir.**



Mars səthində fəaliyyət göstərən "Curiosity" aparatı 6 bucaqlı daş çöküntülərini aşkar edib. Bunlar çöküntülər Marsda palçığın quruması ilə formalaşıb.

Çatlardakı daşlar kalsium sulfat ilə maqnezium qarışığından ibarətdir. Onlar, adətən, suyun quruması zamanı çöküntü halına gəlir. Bu yeni araşdırma bir daha ona dəlalət edir ki, uzaq keçmişdə Marsda bioloji həyat üçün münbit şərtlər mövcud olub.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

Sənət inciləri

## 300 milyon dollarlıq rəsm

**Pol Qogen adını dünya incəsənət tarixinə qızıl hərflərlə yazdıran dahi rəssamlardandır. Rəssam 1848-ci ildə Parisdə anadan olub. Onun yaradıcılığında başlıca yeri postimpressionizm və primitivizm cərəyanları tutur.**



Qogenin rəssamlıq arzusu hələ uşaq yaşlarından başlamışdı. Gənclik çağlarında isə o, yaxın dostları Kamil Pizarro, Pol Sezann ilə birlikdə rəsmlər çəkir, dünya rəssamlıq tarixinin gələcək incilərini yaradırdı.

Böyük rəssamın bütün əsərlərində insanlar öz təbiiliyi ilə təsvir olunub. "Sahildə taitili qadınlar", "Çiçək ilə qadın", "Günorta mürgüsü", "İki taitili qadın" və başqa əsərlərində dərin səmimilik hiss edilməkdədir.

"Nə vaxt evlənəcəksən?" adlı tablosunu isə rəssam 1892-ci ildə ərsəyə gətirmişdir. Əsərdə iki taitili qız əks olunub. Rəsm əsərinin dərin və psixoloji anlamı var. Tabloda insan duyğuları və sevgi hissləri ilə bağlı fəlsəfi məqamlar da öz əksini tapıb.

Əsər 2015-ci ildə hərraca çıxarılmış və Qətər şeyxlərindən biri tablonu rekord qiymətə – 300 milyon dollara satın alıb.

*Leyla HADİ, tələbə-jurnalist*

Sağlamlıq

## Badımcan mikroaptekdir...

***Badımcanın tərkibi şəkər, zülallar, yağlar, kalium, kalsium, natrium, maqnezium, fosfor, brom, xlor, alüminiumla, həmçinin liflərlə, pektin və digər dietik maddələrlə zəngindir. Dietoloqlar badımcanın orqanizm üçün faydalı olduğunu, hətta, orqanizmdən xolesterinin azalmasına və artıq qidaların xaric olunmasına səbəb olduğunu bildirirlər.***



Badımcandan hazırlanan yeməklər ateresklerozun, ürəyin işəmik xəstəliklərinin, öd daşı xəstəliyinin əmələ gəlməsinin qarşısını alır, qanda pis xolesterini azaldır.

Son araşdırmalarda badımcan saplağının tərəvəzin özü qədər faydalı olduğu aşkarlanıb. Türk həkim Fevzi Özgönul bildirib ki, əksər insanlar tərəfindən kəsilib atılan badımcan saplağının faydaları çoxdur. O, zəngin vitamin və mineral tərkibi sayəsində xəstəliklərlə mübarizə aparmağa kömək edir. Saplaqda olan C vitamini dəriyə parlaqlıq verir, tənəffüs xəstəliklərindən qoruyur.

İspanaqdan sonra ən zəngin dəmir tərkibli tərəvəz olan badımcanın saplağı yorğunluğu aradan qaldırır və dəmirin udulmasına kömək edir. İnsulin müqavimətini tarazlaşdırır.

Antioksidantlarla zəngin olduğu üçün toksinlərin bədəndən çıxarılmasını asanlaşdırır.

Həkim bildirib ki, 10 badımcan saplağı, 12 stəkan su, 1/2 stəkan limon suyu, 1 çay qaşığı duzu qazanda 5 dəqiqə qaynadıb süzmək və gündə 2 dəfə içmək olar.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

Proqnoz

## İsti hava şəraiti davam edəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən **avqustun 13-də Bakıda və Abşeron yarımadasında** yağmursuz keçəcək. Cənub-şərq küləyi əsəcək. Gecə 24-28°, gündüz 37-40°, bəzi yerlərdə 41-42° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 30-40 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu:Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 27-28°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 29-30° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yüksək dağlıq ərazilərində qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-28°, gündüz 35-40°, bəzi yerlərdə 42-44°, dağlarda gecə 18-23°, gündüz 29-34° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

## ABŞ-da 7 illik məhkəmə sona yetdi



**Dünya şöhrətli Hollivud ulduzları Bred Pitt və Ancelina Colinin 7 ildir davam edən məhkəməsi başa çatıb. Keçmiş ər-arvad aralarındakı bütün mübahisələri sonlandıra biliblər. Onların ayrılmaq bağlı məhkəmə çəkişmələri xeyli vaxtdır ki, yerli və qlobal medianın diqqət mərkəzində olub.**

Nəhayət, bu günlərdə uzun müddətdir ayrı yaşayan cütlük rəsmi olaraq boşandıqlarını bildiriblər. Vəkilin sözlərinə görə, Ancelina uşaqları öz himayəsinə almaq və digər mübahisəli məsələləri həll etmək üçün o qədər pul sərf edib ki, az qala tam müflis olacaqmış.

Qeyd edək ki, 59 yaşlı Pitt və 48 yaşlı Coli 2016-cı ildə ayrıldıqlarını elan ediblər. Onların biri doğma olmaqla 6 övladı var.

*L.İLKİNQIZI, tələbə jurnalist*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4862
SİFARİŞ 1943
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00